

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 9 (24.495)

*7 mart 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Azərbaycana yönələn istənilən bəd qüvvə qarşısında “dəmir yumruğ”u görəcək



Martın 5-də İran silahlı qüvvələri tərəfindən Naxçıvan ərazisinə dron zərbəsinin endirilməsi hələ də tör-töküntüləri qalan molla rejiminin növbəti və bəlkə də, sonuncu nankorluğunun, riyakarlığının bariz göstəricisidir. Azərbaycan daim qonşuluq prinsipinə sadiq qalıb, ərazisindən İran üçün heç vaxt təhlükə yaratmadığı, bu ölkənin səfirliyinin Livandakı əməkdaşlarına kömək əlini uzatdığı halda, Prezident İlham Əliyevin İranın Ali Liderinin ölümü ilə bağlı dərhal başsağlığı verib, səfirliyi ziyarət etməsindən sonra törədilən bu terror aktına namərdlik, nakişilikdən başqa ad vermək olmaz.

Səhifə ⇨ 2

# Cənub Qaz Dəhlizi, “yaşıl enerji” gündəliyi:

## Azərbaycanın müstəqil enerji siyasətinin uğur göstəriciləri




***Avropanın uzunmüddətli enerji təhlükəsizliyi üçün mühüm meqa layihə – CQD***

Azərbaycanın 1994-cü ildə “Əsrin müqaviləsi” ilə əsası qoyulan, 30 ildən artıqdır, davam və inkişaf edən enerji strategiyasının əsas sütunlarından sayılan Cənub Qaz Dəhlizi bu gün ölkənin iqtisadi gücünü artırmaqla yanaşı, onun beynəlxalq mövqeyini xeyli möhkəmləndirib və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Üç əsas seqmenti – Cənubi Qafqaz Boru Kəməri, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ı (Trans-Adriatik Qaz Boru Kəməri) özündə birləşdirən dəhliz artıq təkcə enerji layihəsi deyil, həm də sabitlik, əməkdaşlıq və strateji tərəfdaşlıq simvoluna çevrilib. Rusiya-Ukrayna müharibəsi fonunda enerji bazarında yaranan gərginlik mənbələrin şaxələndirilməsi məsələsini Avropa üçün prioritetə çevirib. Bu baxımdan, Cənub Qaz Dəhlizi alternativ marşrut və etibarlı təchizat mənbəyi təqdim edərək Avropanın enerji təhlükəsizliyini gücləndirməklə qoca qitə üçün təkcə iqtisadi deyil, həm də siyasi sabitlik faktoru kimi xarakterizə olunur.

2015-ci ildən başlayaraq hər il Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində təşkil olunan görüşlər isə beynəlxalq iqtisadi münasibətlər zəminində yeni əməkdaşlıqların qurulması baxımından mühüm platforma xarakteri daşıyır. İclaslarda görülmüş işlər və enerji bazarındakı transformasiyalar çərçivəsində qarşıda duran məsələlərin həlli istiqamətləri müzakirə olunur, müasir dövrün çağırışlarına uyğun görüləcək əlavə tədbirlər nəzərdən keçirilir. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları da bu baxımdan olduqca faydalıdır. Toplantıya Azərbaycan və Avropa daxil olmaqla, 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və təşkilat, həmçinin 49 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksək səviyyəli nümayəndələr iştirak ediblər. İclas çərçivəsində Nazirlər sessiyası, “Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizində davamlı uğur və yeni inkişaf mərhələsi” və “Yaşıl Enerji Layihələri” üzrə plenar sessiyalar keçirilib. Məşvərət Şurası çərçivəsində Azərbaycan-Avropa İttifaqı Yaşıl Bağlantı üzrə İnvestisiya Dəyirmi Masası, iclasların yekunlarına dair mətbuat konfransı təşkil olunub.

Səhifə ⇨ 3


**Prezident İlham Əliyevin İranın Azərbaycana dron hücumuna dair fikirləri dünya mediasının diqqət mərkəzindədir**




Səhifə ⇨ 4

**Naxçıvan hər zaman lazımi dərəcədə müdafiə olunacaqdır**



Səhifə ⇨ 11

**Şərurda suvarma infrastrukturu yenilənir: kənd təsərrüfatına mühüm töhfə veriləcək**



Səhifə ⇨ 12

**Prezident İlham Əliyevin strateji baxışı fonunda Naxçıvanın enerji inkişaf modeli**



Səhifə ⇨ 13

**Naxçıvan: qədim karvan yolundan müasir nəqliyyat qovşağına**



Səhifə ⇨ 14

# Azərbaycana yönələn istənilən bəd qüvvə qarşısında “dəmir yumruğ”u görəcək

**Prezident İlham ƏLİYEV:**

*“Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar... Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim “dəmir yumruğ”umuzu görəcək.”*





(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında da dövlət başçısı ölkəmizin mənfur hadisə ilə barışmayacağını bildirdi, cavab tədbirlərinin görüləcəyini vurğuladı və yaxın tariximizə dair konkret faktlarla İranın eybəcər simasını qəti şəkildə ifşa etdi. Sitat: ***“Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək”.***

Əvvəldə də qeyd etdiyimiz kimi, bu, molla rejiminin Azərbaycana, onun müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə, əhalisinə yönəlmiş ilk namərd hərəkət deyil, mənfur planların növbəti dalğası, ləyaqətsizliyin son həddidir. Torpaqlarımızın 30 il işğal altında olduğu müddətdə mütəmadi şəkildə təcavüzkara, işğalçıya dəstək verilməsi, ayrı-ayrı İran şirkətləri tərəfindən maddi-mədəni sərvətlərimizin kütləvi talan edilməsi dildə özünü “dost, qonşu” ölkə kimi qələmə verməyə çalışan farsların əsl niyyətini, iç üzünü ortaya qoymurmu?! Və yaxud da məscidlərimizi, dini abidələrimizi murdarlayan bir toplumun nümayəndəsi ilə “yanaq-yanağa” öpüşənlərin özlərini “müsəlman qardaşı”, bu vandalizmi müqəddəsləşdirməyə çalışan dövlətin “İslam Respublikası” adlandırılması gülünc görünmürmü?! Əslində, Azərbaycanın əsgər-zabitləri 44 günlük Vətən müharibəsində öz doğma torpaqlarını azad etmək istəyəndə buna hər vəchlə mane olmağa, hətta əraziyə ordu yeritməyə çalışan, “Zəngəzur dəhlizi” bizim qırmızı xəttimizdir” deyərək Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər ərazisinə keçidə manеə yaratmaqdan ötrü dəridən-qabıqdan çıxan İranın “başbilən”lərindən bundan artığı da gözlənilməndir. Halbuki bu ölkənin ABŞ və İsraillə müharibəsi başlayanda respublikamızın rəsmi bəyanatlarında, hər şeydən öncə, regionda sabitlik və qonşu ölkələrin təhlükəsizliyi önə çıxarılırdı. Səfirliyimizə olan məlum silahlı basqına və ümumiyyətlə, qeyd etdiyimiz bütün təcavüzkar əməllərə rəğmən Azərbaycan İrana humanitar yardım göndərməyi də planlaşdırırdı. Belə bir şəraitdə İran tərəfinin Naxçıvan ərazisində mülki obyekti, mülki vətəndaşların istifadə etdiyi hava limanını hədəf götürməsi dinc sakinlərə və mülki infrastruktura qarşı terror aktı kimi qiymətləndirilməlidir və birmənalı olaraq qiymətləndirilir. Bu terror əməlləri hüquqi-siyasi qiymətini almalı, üzr istənilməli, beynəlxalq hüquqa zidd olan, suverenliyə, ərazi bütövlüyünə qarşı yönəlmiş cinayət cəzasız qalmamalıdır. Lakin hadisənin ilk dəqiqələrindən İran rəsmilərinin özlərini guya vəziyyətdən bixəbər kimi aparmaları, verdikləri mənasız açıqlamalar, cəfəng fikirlər göstərir ki, bu rejim əsl məqsədini “Biz qonşu ölkələrimizə hücum etmirik” kimi bənzər yalançı bəyanatları ilə pərdələməkdə davam edəcəklər.

Deyirlər, tarixdən heç nəyi gizlətmək mümkün deyil, müvəqqəti maskalanmaq olar, ancaq həqiqət gec-tez üzə çıxacaq. Bəli, cənub qonşumuzun, əgər onu qonşu adlandırmaq düzgün olarsa, maskası dəfələrlə açılıb və xalqımıza bugünkü sima çox yaxşı tanışdır. Neyləyək ki, düşmən düşmənçiliyindən əl çəkmədiyi kimi, biz də humanistliyimizdən, insaniliyimizdən əl çəkən deyilik. Bu üzdəniraq mollaların əsl iç üzlərini son bir neçə onilliklərdir, zülm içərisində yaşayan, hər kiçik məsələyə görə edam təhlükəsi ilə üz-üzə qalan, haqları, hüquqları kobud şəkildə tapdalanan soydaşlarımız yaxşı görürlər və zaman-zaman da bunu bəyan etməkdən çəkinmirlər. 30-40 milyon azərbaycanlının yaşadığı bir məmləkətin öz dilində sərbəst danışmağa haqqının olmaması, öz məktəbini açdırmağa icazə verilməməsi isə bir başqa hüquqi prizmadan bu rejimin çirkinliyini ortaya çıxarır. Və bütün bunların timsalında bu gün ərazi bütövlüyü, suverenliyi təmin olunan, qüdrətli Azərbaycan cənublu soydaşlarımıza ümid, inam işığı olduğu kimi, bu işığı kəsməyə çalışan fars rejimi üçün də qulaqbatıran həyəcan təbilidir. Dünyanın hərbi cəhətdən ən güclü ölkələri ilə qızğın müharibənin getdiyi bir vaxtda belə, nankorluq nümunəsinin göstərilməsi çarəsiz halda qalmış rejimin acizliyinin, qorxaqlığının növbəti əyani təsdiqidir. Bu qorxaqlıq və acizlik günbəgün daha da qaranlığa qərq olan “mollaların” 30-40 milyon soydaşımızın qəlbində alovlanan ümid işığından duyduqları təlaşın, tədirginliyin açıq göstəricisidir. Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında dediyi kimi: ***“İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir”.***

Azərbaycan bu gün ən ali tribunalardan dünyada, regionda dayanıqlı sülh və faydalı əməkdaşlığa çağırışlar edir. Bölgədə inşa olunan yeni əməkdaşlıq arxitekturasında qonşu ölkələrin, o cümlədən də İranın iştirakı naminə təşəbbüslərlə çıxış etdiyi, layihələr həyata keçirdiyi halda belə bir düşmənçiliklə qarşılaşması böyük ikrah, sonsuz təəssüf və nifrət hissi doğurmaya bilməz. Son illərin ictimai-siyasi hadisələri göstərir ki, Azərbaycana hücum edənlər, mənfur planlar quranlar həmişə peşman olublar və İranın da bu qorxaq əməlinə görə peşman olacağı qaçılmazdır. Əks halda respublikamız müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır və bu terror aktı cavabsız qalmayacaq. ***“Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar... Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim “dəmir yumruğ”umuzu görəcək”*** – sitatın sonu!

**“Şərq qapısı”**




# Cənub Qaz Dəhlizi, "yaşıl enerji" gündəliyi:

## Azərbaycanın müstəqil enerji siyasətinin uğur göstəriciləri

*(əvvəli 1-ci səhifədə)*

Cənub Qaz Dəhlizi (CQD) qlobal məkanda XXI əsrin ən mühüm transmilli enerji layihələrindən biri kimi qəbul və təqdir edilir. Azərbaycanın təşəbbüsü və liderliyi ilə reallaşdırılan bu layihə Xəzər dənizinin zəngin qaz ehtiyatlarını Avropa bazarına birbaşa çıxarmaqla enerji təhlükəsizliyi sahəsində yeni geosiyasi reallıq yaradıb. Təməli "Əsrin müqaviləsi"nin 20 illiyi qeyd edilən gün – 2014-cü il sentyabrın 20-də qoyulan, 2018-ci il mayın 29-da rəsmi açılışı olan layihənin ümumi dəyəri 33 milyard ABŞ dollarıdır. Azərbaycandan İtaliyayadək uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi 7 ölkənin iştirakı ilə qurulub və ilbəil yeni interkonnektorlarla bu sistemə qoşulmaq təşəbbüsləri, eyni zamanda təbii qazın ixrac həcmi çoxalır. Müqayisə üçün qeyd etmək yerinə düşər ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, indi bu miqdar 13 milyarda çatdırılıb. Ümumilikdə, 2021-ci ildən bəri Avropaya təbii qaz tədarükü 56 faizdən çox artıb, Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) ötürmə gücü isə 1,2 milyard kubmetr genişləndirilib. Azərbaycan, həmçinin Suriya, Almaniya və Avstriyaya qaz tədarükünə başlayaraq təchizat şəbəkəsini Cənub-Şərqi Avropadan Yaxın Şərqə və Mərkəzi Avropaya qədər genişləndirib. Hazırda respublikamız 16 ölkəyə təbii qaz nəql edir ki, həmin ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Martın 3-də Bakı Konqres Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı Prezident İlham Əliyev ölkəmizin enerji siyasəti, reallaşdırılan layihələr barədə danışdı, Azərbaycanın Avropanın enerji bazarında mövcudluğunu genişləndirmək niyyətində olduğunu vurğuladı: ***"Planlarımıza gəldikdə isə, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə – Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün, şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".***

Son illərin geoiqtisadi mənzərəsi göstərir ki, Cənub Qaz Dəhlizi Azərbaycanın beynəlxalq nüfuzunu və dünya iqtisadiyyatındakı rolunu əhəmiyyətli dərəcədə artırıb. Layihə ölkəmizi etibarlı və uzunmüddətli enerji təminatçısı kimi tanıtmaqla yanaşı, müstəqil enerji siyasətinin uğurlu göstəricisinə çevrilib. Layihə sübut edir ki, Azərbaycan regional təşəbbüsləri qlobal miqyasda həyata keçirmək gücünə malikdir.

### Enerji bazarındakı transformasiyalar fonunda mühüm təşəbbüs – "yaşıl enerji"

Azərbaycanın müasir çağırışlara uyğun enerji strategiyasının prioritet hədəflərindən biri də "yaşıl enerji" istehsalının şaxələndirilməsi və ən əsası da ixracının təşkil etməkdir. Bu qlobal iqlim dəyişiklikləri və enerji bazarındakı transformasiyalar fonunda atılan mütərəqqi addım kimi qiymətləndirilir. Bəli, ənənəvi neft-qaz ixracatçısı olan ölkəmiz paralel şəkildə "yaşıl enerji" gündəliyini formalaşdıraraq bərpa olunan enerji mənbələrinin payını artırmağı strateji prioritet kimi müəyyənləşdirib. Azərbaycanın "yaşıl enerji" siyasətinin əsas istiqamətləri sırasında enerji istehsalında bərpa olunan mənbələrin payının artırılması, karbon emissiyalarının azaldılması, enerji ixracının şaxələndirilməsi, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi, xarici investisiyaların cəlb olunması yer alır.

2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" isə ixraca dair əsas istiqamətləri müəyyənləşdirir. Bu saziş Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur ki, bununla da Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Sözügedən nəhəng layihə Azərbaycanla Avropa ölkələrinin əməkdaşlığının gücləndirilməsi baxımından da olduqca önəmlidir və tərəflərin müasir çağırışlara əsaslanan məqsədlərinə uyğundur. Bu eyni zamanda ölkənin enerji ixrac modelində yeni mərhələnin başlanğıcı deməkdir – təbii qazla paralel, elektrik enerjisinin də ixracı. Ölkəmizin "yaşıl gündəli"yinə uyğun olaraq həyata keçirilən tədbirlər çərçivəsində 2023-cü ildə BƏƏ-nin Masdar şirkəti tərəfindən inşa olunan 230 MW gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası (GES) istifadəyə verilib. Cari ilin yanvarında isə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş regionda indiyədək ən böyük külək elektrik stansiyasının – 240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının açılışı olub. Ümumilikdə, 10 günəş və külək elektrik stansiyasının istismara verilməsi ilə bərpa olunan enerjinin inkişafının birinci mərhələsinin tamamlanması nəzərdə tutulur. Ümumi investisiya həcmi 2,7 milyard ABŞ dolları təşkil etməklə 2027-ci ilə qədər Azərbaycanın quraşdırılmış enerji gücündə bərpa olunan enerji mənbələrinin payı 33,7 faizə çatacaq. Bu payın 2030-cu ilə qədər 38, 2035-ci ilə qədər isə 42,5 faizə yüksəldilməsi planlaşdırılır. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında çıxışı zamanı "yaşıl enerji"nin istehsalı və ixracına dair məsələlərə toxundu, qarşıda duran hədəfləri açıqladı. Sitat: ***"Biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 gigavat elektrik enerjisi əldə etməyi gözləyirik. Əlbəttə ki, bu, böyük aktivdir. Beləliklə, biz onu ixrac etməliyik. Hazırda elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı əvəzləmək məqsədilə daxili tələbat üçün istifadə etməliyik. Kommunikasiya sektoru, süni intellekt, data mərkəzləri ilə bağlı planlarımız da daxil olmaqla artan iqtisadiyyat və sənaye üçün şəraiti təmin etməliyik".***

Cənub Qaz Dəhlizi layihəsinin genişləndirilməsi dövlət büdcəsinə daxilolmaları artırır, infrastruktur layihələrinin maliyyələşdirilməsinə imkan yaradır və ölkənin valyuta ehtiyatlarını gücləndirir ki, bu da ümumi iqtisadi inkişaf və sabitliyə xidmət edir. Eyni zamanda bu layihə regionda etibarlı enerji tərəfdaşı kimi Azərbaycanın Avropa ilə strateji əməkdaşlığını dərinləşdirməklə respublikamızın geosiyasi mövqeyini xeyli möhkəmləndirir. Ölkəmizin enerji siyasətinin uğuru yalnız hasilatla deyil, həm də siyasi, iqtisadi sabitlik, investisiya mühiti və uzunmüddətli strateji baxışla ölçülür ki, bu məsələdə "yaşıl enerji" gündəliyi Cənub Qaz Dəhlizini mükəmməl şəkildə tamamlayır. Beləliklə də, həm Cənub Qaz Dəhlizi, həm də "yaşıl enerji" gündəliyi ölkənin uzunmüddətli enerji strategiyasına və dayanıqlı inkişaf məqsədlərinə xidmət edir. Bunların paralel şəkildə, yəni həm ənənəvi (neft, təbii qaz), həm də "yaşıl enerji"nin inkişafı dövlətimizin əsas prioritetlərindəndir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Beləliklə, hidroenerji, Günəş enerjisi, külək enerjisi, potensial olaraq termal enerji, – biz hazırda bu məsələni araşdırırıq, – qaz və bütün mümkün kombinasiyalar nəzərdən keçirilir və işin məhz belə aparılması zəruridir. Müzakirə etdiyimiz məsələyə qayıdaraq qeyd edim ki, hətta COP29 çərçivəsində – bu iqlim konfransına ev sahibliyi etdiyimiz zaman da bildirmişdim, baxmayaraq ki, o dövrdəki tendensiya ilə tam uyğun olmadığını anlayırdım, faydalı qazıntı yanacaq növlərini nəzərə almamaq mümkün deyil. Əgər siz qazıntı yanacağını nəzərə almırsınızsa, bu o deməkdir ki, siz xəyallarla yaşayırsınız".***

**Nail ƏSGƏROV**

# Prezident İlham Əliyevin İranın Azərbaycana dron hücumuna dair fikirləri dünya mediasının diqqət mərkəzindədir










Dünyanın bir sıra media qurumları İranın pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumları ilə bağlı Prezident İlham Əliyevin sərt reaksiyasını geniş işıqlandırıb.

Bir sıra nüfuzlu beynəlxalq informasiya agentlikləri və qəzetlər, xəbər saytları və portallar Azərbaycan rəhbərinin hadisəni "terror aktı" kimi qiymətləndirdiyini və rəsmi Bakının cavab tədbirləri hazırladığını diqqətə çatdırıblar.

**"Reuters"** agentliyi yazır ki, İran istiqamətindən buraxıldığı bildirilən pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə kənd məktəbinin yaxınlığına düşüb. Agentliyin məlumatına görə, Azərbaycan rəsmiləri hadisə ilə bağlı araşdırma aparır və təhlükəsizlik tədbirləri gücləndirilib. Həmçinin qeyd edilib ki, hücum nəticəsində mülki infrastruktura ziyan dəyib və yaralılar var. Yazıda Prezident İlham Əliyevdən sitatlar yer alıb. ***"Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin"***, – deyə Azərbaycan Prezidenti bildirib.

Almaniyanın **"Spiegel"**, **"Zeit"**, **"Handelsblatt"**, **"Tagesspiegel"**, **"Bild"**, **"Berliner Zeitung"** qəzet və jurnalları, **"Tagesschau"** və **"Welt"** telekanalları, eləcə də digər media qurumları bu barədə silsilə xəbərlər yayımlayıb. Xəbərlərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında aeroportun, məktəb binasının və digər mülki obyektlərin dron hücumuna məruz qaldığı vurğulanaraq bu hücumun Azərbaycan tərəfindən sərt şəkildə pisləndiyi, İran səfirinin Azərbaycan Xarici İşlər Nazirliyinə çağırıldığı bildirilib. Məsələ ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasının keçirildiyi, dövlətimizin başçısının göstərişi ilə Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş hazırlığına gətirildiyi bildirilib. **"Tagesspiegel"** qəzeti İran müharibəsinin getdikcə daha çox ölkəyə yayıldığını qeyd edərək PUA-ların Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində də hava limanı yaxınlığında və bir məktəbin yaxınlığında düşdüyünü yazıb. Azərbaycanın bu iyrənc terror aktına görə cavab tədbirləri görəcəyini açıqladığı, Prezident İlham Əliyevin göstərişi ilə Silahlı Qüvvələrin döyüş hazırlığı vəziyyətinə gətirildiyi qeyd olunub.

**"Zeit"** nəşrinin yaydığı xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin pilotsuz uçuş aparatlarının Naxçıvan Muxtar Respublikasına hücumundan sonra ölkənin Silahlı Qüvvələrini döyüş hazırlığı vəziyyətinə gətirdiyini qeyd edərək Azərbaycan Prezidentinin ordumuzun istənilən əməliyyata hazır olması barədə fikrini diqqətə çatdırıb.

Türkiyənin aparıcı televiziya kanalları, informasiya agentlikləri, çap mediası və xəbər saytları, o cümlədən **"TRTHaber"**, **"CNNTürk"**, **"Habertürk"**, **"HaberGlobal"**, **"Sabah"**, **"Hürriyet"**, **"Milliyet"**, **"Star"** və digər media qurumları Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və İran tərəfindən Azərbaycana qarşı törədilmiş terror aktını geniş işıqlandırıb. Qardaş ölkənin mediası Prezident İlham Əliyevin fikirlərindən sitat gətirib. Qeyd olunur ki, Azərbaycan Prezidenti atəşin hədəflərinin mülki obyektlər olduğunu bildirib. Həmçinin vurğulanır ki, Azərbaycan Prezidenti İrandan rəsmi üzr tələb edib və orduya cavab tədbirləri hazırlamaq tapşırığı verib.

***"Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin"***, – deyə Türkiyə mediası Prezident İlham Əliyevin sözlərindən sitat gətirib.

Çin mediası İran İslam Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında söylədiyi fikirlər barədə xəbərlər yayıb. Çinin milli xəbər agentliyi **"Sinxua"**nın, **Çin Mərkəzi Televiziyasının, Çin Xəbər Xidmətinin** internet səhifələrində, digər xəbər portallarında mövzu ilə bağlı informasiyalar yerləşdirilib.

Çin mediası yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında İranın dronlar vasitəsilə Azərbaycana qarşı terror aktı törətdiyini deyib. "Əliyev vurğulayıb ki, İran rəsmiləri Azərbaycana izahat verməli və üzr istəməlidir.




Prezident Əliyev bildirib ki, Azərbaycan İrana qarşı əməliyyatlarda heç vaxt iştirak etməyib və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Azərbaycanın qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağı var, nə də siyasəti buna imkan verir", – deyə Çin mediası yazır.

ABŞ-nin aparıcı media orqanları da İrana məxsus dronların Naxçıvana hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında səsləndirdiyi fikirlərə geniş yer verib. CNN yazıb ki, Azərbaycan Prezidenti İlham Əliyev dron hücumlarını terror aktı və çirkin əməl adlandırıb.

***"Bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir"***, – deyə CNN Prezident İlham Əliyevin fikirlərinə istinad edərək yazıb.

Qeyd olunub ki, Azərbaycan Prezidentinin göstərişi ilə Silahlı Qüvvələrə təlimat verilib ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

***"Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək"***, – deyə yazıda Prezident İlham Əliyevin fikirləri qeyd olunub.

**"Associated Press"** Prezident İlham Əliyevin İranı terrorda və təcavüz aktında günahlandırdığını yazıb. Qeyd olunub ki, Azərbaycan Ordusuna cavab tədbirləri görməyə hazırlaşmaq əmri verilib.

**"ABC News"**, **"CBS News"**, **"Fox News"** və digər aparıcı media orqanları mövzunu günün əsas xəbəri kimi işıqlandırıb.

Fransanın **"France24"**, **"Le Monde"** və digər media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin hadisə ilə bağlı bəyanatını geniş işıqlandırıblar.

Həmin nəşrlərin məlumatına görə, Prezident İlham Əliyev İranın bu addımını "Azərbaycan dövlətinə qarşı terror aktı" adlandırıb və Tehranın bu hadisəyə görə məsuliyyət daşıdığını bildirib. ***"Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir"***, – deyə Azərbaycan Prezidentinin fikirlərindən sitat gətirilib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinə qarşı cavab tədbirləri hazırlamaq və onları həyata keçirmək barədə göstəriş verilib. Prezident İlham Əliyev deyib ki, Azərbaycan Silahlı Qüvvələri bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı həyata keçirməyə hazır olmalıdır.

Bəzi beynəlxalq media qurumları dövlətimizin başçısının digər mühüm sitatlarına yer veriblər. Prezident İlham Əliyev qeyd edib ki, İran bu hücuma görə rəsmi şəkildə üzr istəməli və məsul şəxslər məsuliyyətə cəlb olunmalıdır.

**"Channel News Asia"**, **"UPI"**, **"The Canberra Times"**, **"Eurasianet"**, **"Devdiscourse"** və digər beynəlxalq media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasında səsləndirdiyi bəyanatını geniş işıqlandırıblar.




**"Intellinews"**, **"OC Media"**, **"Times of Israel"**, **"Middle East Eye"**, **"News24"**, **"Daily Mail"**, **"The New Region"** və digər media platformaları da Prezident İlham Əliyevin çıxışına istinad edərək Azərbaycanın təhlükəsizlik qüvvələrinin yüksək hazırlıq vəziyyətinə gətirildiyini yazıblar.

Bəzi nəşrlər, o cümlədən **"TimesCA"**, **"Orlando Sentinel"**, **"20 Minutos"** və **"Independent"** hadisənin regionda gərginliyi artırdığını qeyd edərək Azərbaycanın mümkün cavab addımları üzərində işlədiyini bildiriblər.

Rusiyanın **"RBC"**, **"Vedomosti"**, **"RIA Novosti"**, **"Interfax"**, **"Komsomolskaya Pravda"**, **"Lenta.ru"**, **"Meduza"**, **"Rossijskaya qazeta"** və digər informasiya resursları da Prezident İlham Əliyevin bəyanatına geniş yer ayıraraq onun İranın hücumunu terror aktı kimi qiymətləndirdiyini və Azərbaycan Ordusunun yüksək hazırlıq vəziyyətinə gətirildiyini qeyd ediblər.

Rumıniyanın bir sıra aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin İranın dron hücumları ilə bağlı Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və regionda yaranmış təhlükəsizlik vəziyyətini geniş şəkildə işıqlandırıb. Nəşrlərdə Prezident İlham Əliyevin Azərbaycanın suverenliyinə qarşı yönəlmiş hər hansı təhdidə qəti cavab veriləcəyi barədə mövqeyi xüsusi vurğulanıb.

**"News.ro"** Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə qarşı pilotsuz uçuş aparatları ilə həyata keçirilən hücumu terror aktı kimi qiymətləndirdiyini və bu hadisəyə görə Tehranın məsuliyyət daşıdığını bildirdiyini yazıb. Rumıniyanın analitik nəşrlərindən olan **"Newsweek Romania"** isə yazır ki, Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyini təmin etmək üçün zəruri addımlar atmağa hazır olduğunu bildirib. Rumıniyanın dövlət radiosuna bağlı analitik platforma olan **"Rador"** xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin təhlükəsizliyinə qarşı yönəlmiş istənilən addıma adekvat cavab veriləcəyini bildirib. **"Gandul"** xəbər portalı isə yazır ki, Prezident İlham Əliyev İranı Azərbaycan dövlətinə qarşı terror aktı törətməkdə ittiham edib.

**"Euronews Romania"** isə dron hücumu nəticəsində bir neçə nəfərin yaralandığını və pilotsuz aparatların birinin aeroport yaxınlığında partladığını vurğulayıb. Nəşrin məlumatına görə, Prezident İlham Əliyev bu hücumu Azərbaycan dövlətinə qarşı düşmənçilik aktı kimi qiymətləndirib və məsul şəxslərin müəyyən edilərək cavab verməli olduğunu bildirib.

Bir sıra beynəlxalq media qurumları Prezident İlham Əliyevin digər mühüm mesajını da diqqətə çatdırıblar. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan heç vaxt İran əleyhinə hərbi əməliyyatlarda iştirak etməyib və etməyəcək, lakin ölkənin suverenliyinə və təhlükəsizliyinə qarşı hər hansı hücum qətiyyətlə cavablandırılacaq.

Yunanıstan mediası da Prezident İlham Əliyevin fikirlərinə geniş yer ayırıb.

Yunanıstanın dövlət televiziya və xəbər platforması **"ERT News"** yazır ki, Prezident İlham Əliyev Azərbaycanın ərazisinə edilən dron hücumunu İran tərəfindən həyata keçirilmiş terror aktı kimi qiymətləndirib. Nəşr qeyd edir ki, pilotsuz uçuş aparatlarından biri Azərbaycan ərazisində yerləşən obyektlərdən birinə düşüb və hadisə nəticəsində bir neçə nəfər yaralanıb. Məqalədə Prezident İlham Əliyevin bu hadisənin ciddi təhlükəsizlik insidenti olduğunu bildirdiyi və İranın məsuliyyət daşıması ilə vurğuladığı qeyd edilir.

**"SKAI"** yazır ki, Prezident İlham Əliyev İranın Azərbaycana qarşı terror aktı törətdiyini bəyan edib. Azərbaycan lideri rəsmi Tehranın baş verən hadisə ilə bağlı izahat verməli olduğunu bildirib.

**"CNN Greece"** qeyd edir ki, Prezident İlham Əliyev İranın bu terror aktının ciddi nəticələrinin ola biləcəyini bildirib. Rəsmi Bakı hadisə ilə bağlı İran tərəfinin məsuliyyətini gündəmə gətirib və Tehrandan rəsmi açıqlama tələb edib.

**"Capital.gr"** portalında yayımlanan xəbərdə qeyd olunur ki, hadisədən sonra Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib. Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı təhdidə operativ cavab verməyə hazırdır və vəziyyət diqqətlə izlənilir.

**"Liberal.gr"** bildirir ki, Prezident İlham Əliyev Azərbaycan Ordusuna mümkün cavab tədbirlərinə hazırlaşmaq barədə göstəriş verib. Nəşr qeyd edir ki, Azərbaycan rəhbərliyi baş verən hadisəni ölkənin təhlükəsizliyinə qarşı ciddi təhdid kimi qiymətləndirir və vəziyyətin inkişafını diqqətlə izləyir.

**"Kanaliena"** yazır ki, Azərbaycan tərəfi bu məsələ ilə bağlı İranın rəsmi izahat verməli olduğunu və hadisənin bütün təfərrüatlarının araşdırılacağını bildirib.

Dövlətimizin başçısının çıxışı Gürcüstan mediasının da diqqət mərkəzində olub. **"interpressnews.ge"**, **"imedinews.ge"**, **"bpn.ge"**, **"1tv.ge"**,**"radiotavisupleba.ge"**, **"qafqazturk.com"**, **"aktual.ge"**, **"interpress.ge"**, **"24news.ge"**, **"rustavi2.ge"**, **"palitranews.ge"** informasiya portalları, radio və televiziyaları Prezident İlham Əliyevin İran tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisinə dron hücumlarını qətiyyətlə pislədiyini bildirib.

Azərbaycan Prezidentinin çıxışından gətirilən sitatda deyilir: ***"Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir"***.

# Ali Məclisin növbəti plenar iclası keçirilib





Martın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyində duran məsələlərin “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi (ikinci oxunuş) və Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin vəzifəyə təsdiq edilməsinin müzakirəsi olduğunu bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə bağlı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasın gündəliyinə daxil edilən sonuncu məsələ ilə əlaqədar Ali Məclis sədrinin birinci müavini bildirib ki, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə namizəd barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi Ali Məclisə daxil olub.

Təklif oxunub, namizəd haqqında ətraflı məlumat verildikdən sonra “Fərid Talətdin oğlu Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilməsi ilə əlaqədar” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Qəbul olunmuş qərarla Fərid Talətdin oğlu Bağırzadə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilib.

Fərid Bağırzadə göstərilən etimada görə minnətdarlıq edib, üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəyini bildirib.

Bəxtiyar Məmmədov yeni vəzifəyə təyin olunması münasibətilə Fərid Bağırzadəni təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Ali Məclisin iclası başa çatıb.



## F.T.Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Fərid Talətdin oğlu Bağırzadə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 4 mart 2026-cı il*

## F.T.Bağırzadənin Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Fərid Talətdin oğlu Bağırzadə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 4 mart 2026-cı il*

# Ali Məclisin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib



Martın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev bildirib ki, iclasın gündəliyinə ikinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi daxil edilib.

İclasda qanun layihəsinə deputatlar tərəfindən hər hansı təklif olmadığından layihə mövcud redaksiyada Ali Məclisin plenar iclasının ikinci oxunuşda müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# “Milli iqtisadiyyat və dövlət idarəçiliyi” mövzusunda təlim keçirilib



Martın 4-də Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Təlim Mərkəzinin birgə təşkilatçılığı ilə Naxçıvanda “Milli iqtisadiyyat və dövlət idarəçiliyi” mövzusunda təlim keçirilib. Təlimi Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru Azər Əmiraslanov aparıb.

Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarında çalışan 93 əməkdaşın cəlb olunduğu təlimdə qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri və makroiqtisadi sabitlik siyasəti milli iqtisadiyyatın fundamental əsaslarını yaradıb. Həmin mərhələdə iqtisadi sabitliyin təmin olunması dövlətçiliyin möhkəmləndirilməsi ilə paralel şəkildə strateji əhəmiyyət daşıyıb.

Çıxış zamanı Naxçıvanın döv-



lətçilik tarixindəki rolu xüsusi vurğulanıb. Bildirilib ki, məhz bu bölgədə dövlətçilik təməllərinin qorunması və gücləndirilməsi prosesi milli iqtisadi düşüncənin ideoloji əsaslarının formalaşmasına mühüm təsir göstərib və bu irs dərin ehtiramla yad edilməlidir.

Azər Əmiraslanov bildirib ki, uğurla icra olunan neft strategiyası ölkəyə maliyyə dayanıqlılığı qazandırmaqla yanaşı, struktur islahatlarının aparılması üçün möhkəm baza yaradıb. Bununla yanaşı, strateji baxış ondan ibarətdir ki, iqtisadiyyat bir resursdan asılı vəziyyətdə qalmamalıdır. Bu kontekstdə dövlət başçısının ***“Öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki bizdə neft və qaz yoxdur”*** tezisi iqtisadi təhlükəsizliyin əsas prinsiplərindən biri kimi dəyərləndirilib. Qeyd edilib ki, son illərdə qeyri-neft sektorunun payının artması iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımların real nəticələrini göstərir. 2025-ci ildə ölkə üzrə 129,2 milyard manatlıq ÜDM istehsal olunması makroiqtisadi potensialın göstəricisi kimi qiymətləndirilsə də, əsas prioritetin ÜDM-in həcmi deyil, onun struktur keyfiyyətinin və dayanıqlılığının təmin edilməsi olduğu bildirilib.

Təlim zamanı vurğulanıb ki, dövlət qulluqçusunun rolu yalnız qəbul edilən qərarların icrası ilə məhdudlaşmır. Dövlət qulluqçusu iqtisadi siyasətin daşıyıcısı, ictimai etimadın təminatçısı və strateji hədəflərin həyata keçirilməsində əsas subyekt kimi çıxış etməlidir.

Təlim çərçivəsində iştirakçılar tərəfindən mövzu ətrafında fikir mübadiləsi aparılıb, dövlət idarəçiliyində effektiv mexanizmlərin tətbiqi, sahibkarlıq mühitinin gücləndirilməsi, qeyri-neft sektorunun inkişaf perspektivləri və iqtisadi transformasiya prosesləri müzakirə olunub.

# “Kiberhücumlara qarşı mübarizə və təhlükəsizlik tədbirləri” mövzusunda tədbir olub



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan Şəhər İcra Hakimiyyətində “Kiberhücumlara qarşı mübarizə və təhlükəsizlik tədbirləri” mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsinin Maliyyə bazarı iştirakçılarının hüquqlarının müdafiəsi bölməsinin əməkdaşı Pərviz Babayev mövzu ilə bağlı çıxış edərək kiberhücumların şəxslərə, bizneslərə və təşkilatlara böyük zərər verə biləcək ciddi təhdidlər olduğunu və bu hücumların həssas məlumatların oğurlanmasına, məlumatların məhv edilməsinə və ya sistemlərin pozulmasına səbəb olduğunu, lakin kiberhücumların növləri haqqında məlumatlı olmaq və qabaqlayıcı tədbirlər görməyin bu təhdidlərin qarşısını almağa və kibertəhlükəsizliyi gücləndirməyə kömək edə biləcəyini bildirmişlər. Həmçinin tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən vətəndaşların şəxsi məlumatlarının qorunması və kiberdələduzluq risklərinin qarşısının alınması məqsədilə hazırlanmış sosial videoçarxlar nümayiş etdirilib.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Tarix göstərib ki, Azərbaycana qarşı edilən hücumlar heç vaxt müsbət nəticə verməyib



Ülviyyə HƏMZƏYEVA
*Milli Məclisin deputatı*

**Naxçıvan istiqamətinə İran ərazisindən endirilən dron hücumları bütün regionda ciddi narahatlıq yaratmışdır. Bu hücumların mülki obyektləri, hava limanı və məktəb yaxınlıqlarını hədəf alması insanlıq və beynəlxalq hüququn prinsiplərinə açıq şəkildə ziddir. Mülki infrastruktura qarşı yönəlmiş hər bir addım müharibə dəyil, acizlik, qorxaqlıq və mənəvi zəifliyin göstəricisidir.**

Özünü "İslam hamisi" kimi təqdim edən Tehran rejimi uzun illər boyunca Ermənistanın hərbi və iqtisadi mənafelərinə xidmət etmişdir. Tarixi hadisələr göstərir ki, Şuşada və Ağdamda müqəddəs yerlərimiz dağıdılarkən bu rejim erməni qəsbkarlarına açıq dəstək verib. Bu gün Naxçıvana yönəlmiş hücum isə həmin düşmənçiliyin davamıdır: qonşuluq maskası arxasında gizlənmiş xain bir siyasət açıq terror və alçaqlıq aktına çevrilib.

Azərbaycan dövləti hər zaman qonşuluq və humanist prinsiplərə sadiq qalıb. Ölkəmiz ərazisinin başqa ölkələrə qarşı istifadə olunmayacağını dəfələrlə bəyan edib. Prezident İlham Əliyev İranın ali liderinin ölümü zamanı yüksək dövlət etikasını nümayiş etdirərək başsağlığı verib və səfirliyi ziyarət edib. Lakin dron hücumları göstərir ki, Tehran yalnız güc və təzyiq dilindən anlayır.

Bu hadisələr uzun müddətdir, İranda yaşayan azərbaycanlıların hüquqlarının məhdudlaşdırılması və milli fəalların təqib edilməsi ilə birlikdə qiymətləndirilləndə regionda vəziyyətin nə qədər mürəkkəb olduğunu göstərir. Urmiya gölünün qurudulması, milli təhsil və mədəni hüquqların məhdudlaşdırılması, həmçinin fəalların həbs olunması, bu hücumların yalnız coğrafi sərhədlərlə məhdudlaşmadığını göstərir: bu həm də insanlıq və hüquq baxımından ciddi problem yaratmışdır. Güclü zəlzələ zamanı İranda yaşayan soydaşlarımıza qarşı rejimin rəftarını da unutmuş deyilik.



Azərbaycan isə öz ərazisini və vətəndaşlarını qorumaq hüququna malikdir. Tarix göstərir ki, ölkəmizə qarşı edilən hücumlar heç vaxt müsbət nəticə verməyib və bu dəfə də istisna olmayacaq. Dron hücumlarına qarşı Azərbaycan lazımi cavab tədbirlərini görmək gücünə və iradəsinə malikdir.

Məsələni aydınlaşdırmaq və baş verən hadisəyə görə məsuliyyət daşıyanları müəyyən etmək İranın öhdəliyidir. Regionda onsuz da kifayət qədər gərgin vəziyyət mövcuddur və belə hərəkətlər vəziyyəti daha da ağırlaşdıra bilər. Belə qorxaq addımlar regionda yalnız təlaş və gərginliyi artırır.

Azərbaycan öz mövqeyində sadiq qalaraq qonşuluq, humanist və beynəlxalq hüquq prinsiplərini qorumaqda davam edəcək. Lakin hər bir xain və düşmən addımın qarşısında ölkəmiz gücünü nümayiş etdirməkdən çəkinməyəcək və dinc sakinlərin təhlükəsizliyini hər şeydən üstün tutacaq.

# Naxçıvanda məktəb yaxınlığına düşən dronun qalıqları

Xəbər verdiyimiz kimi, İran ərazisindən Naxçıvan Beynəlxalq Hava Limanına, eləcə də Babək rayon Şəkərabad kənd tam orta məktəbinə dron hücumu həyata keçirilib.

Qeyd edək ki, İran İslam Respublikasının ərazisindən Naxçıvan Muxtar Respublikasına martın 5-də günorta saatlarında dron hücumları həyata keçirilib. Dronlardan biri Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digəri isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb.

Hava limanının binasına zərər dəyib, dörd mülki şəxs xəsarət alıb.



# Naxçıvanla əlaqə Bakı-İğdır-Bakı marşrutu üzrə təşkil olunur

AZAL-dan açıqlama: Son hadisələrlə əlaqədar olaraq Bakı-Naxçıvan-Bakı marşrutu üzrə planlaşdırılan bütün reyslər ləğv olunub.

Azərbaycan vətəndaşları üçün Bakıdan Naxçıvana nəqliyyat əlaqəsinin təmin edilməsi məqsədilə Bakıdan Türkiyənin İğdır şəhərinə və əks istiqamətdə aviareyslər təyin edilib. Sərnişinlərin İğdır Hava Limanından Naxçıvana və əks istiqamətə daşınması üçün xüsusi avtobuslar təşkil olunub. Avtobus reysləri Naxçıvan avtovağzalından həyata keçirilir.



# İran dronunun yaxınlığına düşdüyü Şəkərabad kənd tam orta məktəbindən reportaj



Məlum olduğu kimi, martın 5-də İran İslam Respublikası ərazisindən Naxçıvan Muxtar Respublikası ərazisinə dron hücumları həyata keçirilib. Dronlardan biri Babək rayon Şəkərabad kənd tam orta məktəbinin yaxınlığına düşüb.

Dron hücumundan bir gün ötməsinə baxmayaraq, Şəkərabad kənd tam orta məktəbində tədris öz axarı ilə davam edir. Səhərin erkən saatlarından müəllim və şagirdlər təhsil ocağına tələsirlər. Yerişlərində əzm, inam hiss olunsa da, üzlərindəki narahatlıq hələ də qalmaqdadır.

Hadisədən təsirlənən məktəbin riyaziyyat müəllimi Leyla Həsənova



deyir ki, martın 5-də, təxminən, saat $11^{30}$ radələrində dərslər normal qaydada davam edirdi. Anidən güclü partlayış səsi eşidildi: "Hava limanı məktəbə yaxın olduğu üçün partlayışın həmin ərazidə baş verdiyini gördük. Dərhal uşaqları təxliyə etdik və məktəbin həyətinə çıxardıq. Təxminən, 7-8 dəqiqə sonra uşaqların təxliyəsini tam başa çatdırmamışdıq, yalnız yarısını çıxarmışdıq ki, ikinci dəfə zərbə endirildi. Yaşadığımız panika, stres və qorxuya baxmayaraq, bütün bunları bir kənara qoyaraq uşaqların təhlükəsizliyini tam təmin etdik".

Təhsil ocağının ingilis dili müəllimi Aytəkin Babayevanın



sözlərinə görə, yaşanan hadisə pedaqoji heyət və şagirdlərin yaddaşında travma kimi qalıb. Bütün yaşananlara baxmayaraq, müəllimlər vəziyyəti nəzarətdə saxlayıb və bütün şagirdlərin təhlükəsizliyi təmin edilib. Daha sonra uşaqlar valideynlərinə təhvil verilib. "Hazırda məktəbdə vəziyyət sabitdir. Tədris prosesi cədvələ uyğun şəkildə davam edir və şagirdlərə lazım olan psixoloji dəstək göstərilir", – deyə Aytəkin müəllim əlavə edir.

Hadisənin şahidi olan şagirdlərdən 8-ci sinifdə oxuyan Münəvvər İsgəndərli isə bildirir ki, hadisə baş verən vaxt müəllimləri çox diqqət nümayiş etdiriblər. Şagirdlər sürətli və ehtiyatlı şəkildə məktəbdən çıxarmağa başlayıblar: "Siqnal verildikdən sonra biz artıq məktəbin həyətində idik. Təxminən, 5-10 dəqiqə sonra məktəbimizin yaxınlığında yenidən partlayış səsi eşidildi. Bildirildi ki, bu da İran tərəfindən atılan dronlardan biridir. Həmin anda hamımız çox həyəcanlı və qorxmuş vəziyyətdə idik və nə edəcəyimizi belə bilmirdik".

Göründüyü kimi, İran dronunun Şəkərabad kənd tam orta məktəbinin yaxınlığına düşməsi müəllim və şagirdləri narahat etsə də, onları tədrisdən tam uzaqlaşdıra bilməyib. Dövlətimizin məsələyə dərhal həssas münasibəti, mülki vətəndaşların hüquqlarının qorunması istiqamətində ortaya qoyduğu kəskin, sarsılmaz mövqe məktəbin kollektivinin inam yerinə çevrilməklə onları bu çətin məqamdan daha asan çıxmağa, məsuliyyətli işin öhdəsindən layiqincə gəlməyə ruhlandırır. Onlar inanır ki, baş verən hadisə öz hüquqi qiymətini mütləq alacaq.



# ƏÜO-da məzunlar "Komando andı"nı qəbul ediblər

Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.

Çıxış edənlər kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik ediblər. Qeyd olunub ki, kurs müddətində keçirilən intensiv təlimlər nəticəsində hərbi qulluqçuların peşəkarlıq səviyyəsi yüksəlib və potensial təhdidlərə qarşı istənilən şəraitdə müasir döyüş aparma üsulları mənimsənilib. Kursu müvəffəqiyyətlə bitirən məzunlar "Komando andı"nı qəbul ediblər.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub. Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşın sədaları altında tribunanın önündən keçib.



# Naxçıvan məktəblisindən Təbrizə, Zəncana təsirli sözlər – "Mənim səsim olun!"



İranın pilotsuz uçuş aparatlarının hədəfinə çevrilmiş Naxçıvanın Babək rayonunun Şəkərabad kənd orta məktəbinin 11-ci sinif şagirdi Fidan Babayevanın sosial media paylaşımı gündəm olub.

Naxçıvan məktəblisi Quzeyli, Güneyli Azərbaycana, dünyada uşaqların ölümünə qarşı olan bütün insanlara üz tutaraq İran tərəfindən törədilmiş bu cinayətə susmamağa çağırış edib.

"Biz – günahsız insanlar sizə neyləmişik, niyə hərbi hədəfiniz olmuşuq?" sualını verən məktəblinin "Mənim səsim olun!" çağırışı geniş rezonans yaradıb.

Azərbaycan QHT-ləri, ictimai fəallar bu videonu paylaşaraq sosial mediada "Mənim səsim olun!" (#BeMyVoice) adlı kampaniyaya başlayıb və Azərbaycanın haqq səsini ucaldıblar. Azərbaycan QHT-ləri İrandan üzrxahlıq və cinayəti törədənlərin cəzalandırılmasını tələb ediblər.

## MN: Hücum aktları cavabsız qalmayacaq



Martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan Beynəlxalq Hava Limanına və digər mülki infrastruktura hücum aktları həyata keçirilib. Pilotsuz uçuş aparatlarının texniki parametrləri və bu hücumların təfərrüatları araşdırılır.

Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi hər hansı hərbi zərurət olmadığı halda, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisində mülki infrastruktura qarşı törədilən hücumları qəti şəkildə pisləyir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirləri hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq", – deyə Müdafiə Nazirliyindən bildirilib.

## XİN: İran Naxçıvana dron hücumu edib – BƏYANAT

5 mart tarixdə günorta radələrində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib.

Bu barədə Azərbaycan XİN-in bəyanatında deyilir.

1 ədəd dron Naxçıvan Muxtar Respublikasının Beynəlxalq Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb.

Hava limanının binasına zərər dəyməsi və iki nəfər mülki şəxsin xəsarət alması ilə nəticələnən İran İslam Respublikası ərazisindən həyata keçirilən bu dron hücumlarını qətiyyətlə pisləyirik.

Azərbaycan ərazisinə bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə ziddir və regionda gərginliyin artmasına xidmət edir.

İran İslam Respublikası tərəfindən qısa müddət ərzində qeyd olunan məsələyə aydınlıq gətirilməsini, buna izahat verməsini və bu



kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməyi tələb edirik.

Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır.

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müctəba Dərmiçilu Xarici İşlər Nazirliyinə çağırılıb. İran tərəfinə kəskin etiraz bildirilərək müvafiq etiraz notası təqdim ediləcək.

## Baş Prokurorluğun mətbuat xidmətinin məlumatı

Naxçıvanda mülki infrastruktura dronla hücumla bağlı cinayət işi başlanıb. Bu barədə Azərbaycan Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, martın 5-də İran İslam Respublikasının ərazisindən uzaqdan idarə olunan partlayan döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə qarşı hücum həyata keçirilib.

İlkin istintaq hərəkətləri ilə müəyyən edilib ki, pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə Babək rayonunun Şəkərabad kəndində yerləşən təhsil müəssisəsinin yaxınlığına düşüb.

Hadisə nəticəsində mülki infrastruktur obyektinə, yəni Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasına və işinə əhəmiyyətli ziyan vurulub, eləcə də hava limanı xidmətlərinin işi qəsdən qanunsuz olaraq pozulduğundan Naxçıvan-Bakı istiqaməti üzrə 264 nömrəli reysi həyata keçirməli olan mülki hava gəmisi havada olarkən təhlükəsizlik məqsədilə Bakı şəhəri istiqamətində geri qayıtmağa məcbur olub.

Bundan başqa, hadisə nəticəsində dörd nəfər mülki şəxs:

Naxçıvan Hava Limanında xidmət aparan əməkdaşlar:

*– 1986-cı il təvəllüdlü Vəliyeva Reyhanə Sabir qızı,*

*– 1996-cı il təvəllüdlü Zülfüqarlı Zülfüqar Məmməd oğlu,*

*– 1996-cı il təvəllüdlü Əsgərov Mehdi Mətləb oğlu*

*– təyyarəyə minik gözləyən sərnişin 1998-ci il təvəllüdlü Cəfərov Əsəd Vidadi oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb.*

Zərərçəkmiş şəxslərə müvafiq tibbi yardımlar göstərilib, hazırda xəstəxanada həkim nəzarəti altında müalicələri davam etdirilir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq ibtidai araşdırmanın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub.



Hazırda cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə hadisə yerinə baxış keçirilib, maddi sübutlar toplanıb, zərərçəkmiş şəxslərin və şahidlərin ilkin ifadələri alınıb, eləcə də müvafiq ekspertizalar təyin edilməklə çoxsaylı istintaq hərəkətləri icra olunur.

Bundan başqa, PUA-ların mənşəyi və idarəetmə marşrutu üzrə texniki araşdırmalar da aparılır.

İbtidai istintaq çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücumun bütün halları obyektiv, tam və hərtərəfli şəkildə araşdırılacaq, təqsirli şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlərin icrası təmin olunacaqdır.

Baş Prokurorluq bildirir ki, mülki əhalinin və strateji infrastruktur obyektlərinin hədəf alınması beynəlxalq humanitar hüququn əsas prinsiplərinin kobud şəkildə pozulmasıdır.

Cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir və ictimaiyyətə əlavə məlumatların verilməsi təmin ediləcək.

Martın 5-də İran İslam Respublikasının ərazisindən uzaqdan idarə olunan partlayan döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə qarşı hücumun həyata keçirilməsi faktı üzrə Cinayət Məcəlləsinin 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq) və 270-1.3-cü (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

## Naxçıvana dron hücumu İran hakimiyyətinin riyakarlığını nümayiş etdirir



**Əjdər ƏLİYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Hüquq siyasəti komitəsinin sədri*

Yaxın Şərqdə baş verən hadisələr fonunda İran tərəfindən Naxçıvan Muxtar Respublikasına pilotsuz uçuş aparatları ilə edilən hücum beynəlxalq hüquqa zidd olmaqla yanaşı, açıq şəkildə terror aktıdır. Bu hücumun hədəfinin mülki obyektlər və mülki infrastrukturlar olması hadisənin mahiyyətini daha da ağırlaşdırır. Naxçıvan ərazisinə dron zərbəsinin endirilməsi İran hakimiyyətinin riyakarlığını və nankorluğunu açıq şəkildə nümayiş etdirir. Mülki infrastrukturu, xüsusilə insanların gündəlik istifadə etdiyi obyektləri hədəf almaq isə açıq şəkildə acizlik və qorxaqlıq əlamətidir.

Azərbaycan dövlətinin İranla bağlı mövqeyi hər zaman aydın olub. Ölkəmiz daim mehriban qonşuluq prinsiplərinə sadiq qalıb və Azərbaycan ərazisindən heç vaxt başqa dövlətlərə qarşı təhlükə yaradılmayıb. Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, ölkə ərazisi heç bir halda üçüncü dövlətlərə qarşı istifadə edilə bilməz və buna heç vaxt icazə verilməyəcək. Azərbaycan tərəfinin bu mehriban qonşuluq münasibətlərinə bariz nümunəsi kimi Prezident İlham Əliyevin İranın ali liderinin vəfatı ilə bağlı dərhal başsağlığı verməsi və İran səfirliyini ziyarət etməsidir. Azərbaycan hər zaman çətin günlərdə qonşularına dəstək olub. Belə bir şəraitdə İranın Naxçıvan ərazisində mülki obyektləri, xüsusilə də mülki vətəndaşların istifadə etdiyi hava limanını, tədris saatında məktəb binasını hədəf alması, bunun nəticəsində 4 vətəndaşımızın xəsarət alması molla rejiminin nankorluğunun göstəricisidir və bu cür addımlar regionda gərginliyi artırmaqdan başqa heç bir məqsədə xidmət etmir.

Ölkəmizin bütün xoş niyyətlərinə baxmayaraq, uzun illərdir, öz ölkəsində yaşayan milyonlarla azərbaycanlıya qarşı ayrı-seçkilik siyasəti həyata keçirən, soydaşlarımızı müxtəlif hüquqlardan məhrum edən, azərbaycanlı fəalları təqib edən, təzyiqlərə məruz qoyan, dövlətə bağlı media resurslarında Azərbaycanı gözdən salmaq məqsədilə uzun müddətdir, qarayaxma və böhtan kampaniyası aparan rejim Naxçıvanın mülki obyektlərini hədəf almaqla özünün ən iyrənc üzünü bir daha nümayiş etdirdi. Bu gün Azərbaycan cənab Prezidentin rəhbərliyi ilə geosiyasi proseslərin mərkəzində siyasi proseslərə yön verən çox mühüm aktordur. Eyni zamanda ölkəmizin ciddi döyüş təcrübəsinə malik güclü ordusu var. Qısacası, Azərbaycanın bu cür təxribatların qarşısını almaq üçün həm siyasi, həm də hərbi gücü mövcuddur. Buna görə də İran rəsmiləri tərəfindən izahat verilməli, üzr istənilməli və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Hazırda Azərbaycan Silahlı Qüvvələri, sərhəd qoşunları və digər xüsusi təyinatlı qurumlar yüksək hazırlıq vəziyyətinə gətirilib və istənilən təhlükəyə cavab verməyə hazırdır. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü qorumaq hüququna malikdir və müvafiq cavab tədbirlərini görmək hüququnu özündə saxlayır. Azərbaycan dövləti beynəlxalq hüquqa əsaslanaraq öz təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirləri görəcək və ölkəyə qarşı yönəlmiş istənilən təhdidə adekvat cavab verəcəkdir. Ölkəmizin təhlükəsizliyi və suverenliyi qətiyyətlə qorunur və dövlətimiz istənilən təhlükəyə qarşı gücünü nümayiş etdirməyə qadirdir. Cənab Prezidentin də qeyd etdiyi kimi: ***"Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək".***

## Beynəlxalq hüquqa zidd təhlükəli addım



**Rauf CƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

İran İslam Respublikasının ərazisindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına pilotsuz uçuş aparatları vasitəsilə həyata keçirilən hücum qətiyyətlə pislənilməlidir. Mülki infrastrukturu və dinc insanları hədəfə alan belə addımlar regionda təhlükəsizlik və sabitliyə ciddi təhdid yaradır.

Baş vermiş hadisə bir daha göstərir ki, İran tərəfi öz məsuliyyətini dərk etməli və bu insidentlə bağlı aydın mövqe ortaya qoymalıdır. Naxçıvan ərazisinə dron zərbəsinin endirilməsi beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır. Mülki vətəndaşların istifadə etdiyi hava limanının və təhsil müəssisəsinin yerləşdiyi ərazinin hədəfə alınması isə heç bir halda qəbul edilə bilməz.

Mülki infrastruktura dron hücumu təşkil etmək, xüsusilə də məktəbin yerləşdiyi əraziyə zərbə endirilməsi təkcə təhlükəli deyil, həm də məsuliyyətsiz və qəbuledilməz addımdır. Bu cür hərəkətlər regionda onsuz da həssas olan təhlükəsizlik mühitini daha da gərginləşdirir.

Azərbaycan dövləti isə hər zaman qonşuluq münasibətlərinə sadiq qalan və regional sabitliyi dəstəkləyən mövqe nümayiş etdirib. Azərbaycan ərazisindən İran və ümumilikdə, heç bir ölkə üçün təhlükə olmayıb və yoxdur. Əksinə, Azərbaycan rəhbərliyi İranla münasibətlərdə daim qarşılıqlı hörmət və dəstək prinsipinə əsaslanan siyasət yürüdüb.

Bunun bariz nümunələrindən biri də Azərbaycan Prezidenti İlham Əliyevin İranın ali liderinin vəfatı ilə bağlı dərhal başsağlığı verməsi və İran səfirliyini ziyarət etməsidir. Azərbaycan çətin dövrlərdə də qonşularına humanitar dəstək göstərmək niyyətini hər zaman ortaya qoyub.

Belə bir şəraitdə İran tərəfinin Naxçıvan ərazisində mülki obyektləri və dinc insanların istifadə etdiyi infrastrukturu hədəfə alması ciddi suallar doğurur. Bu addım beynəlxalq hüququn prinsiplərinə zidd olmaqla yanaşı, regionda etimad mühitinə də zərbə vurur.

Eyni zamanda uzun illərdir, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın üzləşdiyi çətinliklər, azərbaycanlı fəalların təqib olunması və milli hüquqların məhdudlaşdırılması da bu siyasətin müxtəlif təzahürləri kimi qiymətləndirilir.

Tarix isə göstərir ki, Azərbaycana qarşı yönələn hücumlar heç vaxt nəticəsiz qalmayıb. Azərbaycanın təhlükəsizliyinə və suverenliyinə qarşı atılan hər hansı addım müvafiq hüquqi və siyasi qiymətini alır. Azərbaycan tərəfi beynəlxalq hüquqa uyğun olaraq lazımi cavab tədbirləri görmək hüququnu özündə saxlayır və belə hücumların cavabsız qalmayacağı aydındır.

Regionda sabitlik və təhlükəsizliyin qorunması isə yalnız beynəlxalq hüquqa hörmət və qarşılıqlı etimada əsaslanan siyasət sayəsində mümkün ola bilər.

# MART Beynəlxalq Qadınlar Günüdür

# Azərbaycan qadını zərafət və sədaqət mücəssəməsi

**Prezident İlham ƏLİYEV:**

***"Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısı kimi müstəqillik illərindəki nailiyyətlərimizin zirvə nöqtəsinə yüksəlməyimiz və parlaq Qələbə sevinci yaşamağımız naminə var qüvvəsini səfərbər etmişdir. Millilikla müasirliyin vəhdətini yüksək mənəviyyatunu ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan xanımları yeni tarixi şəraitdə geniş sosial-mədəni fəaliyyətləri sayəsində böyük ictimai nüfuz qazanmış və cəmiyyət həyatına həmişə bir dinamizm qatmışlar. Onlar adlarını uca tutduqları maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirmiş, müsəlman Şərqində qadınlar arasında mədəniyyətin, incəsənətin, təhsilin və elmin bir çox sahələrində ilk addımları atmaqla yenilikçi, qabaqcıl fikirli və tərəqqipərvər olduqlarını əməli surətdə sübuta yetirmişlər."***

***Azərbaycan qadını tarixən öz iradəsi, isməti, vəfası ilə sayılıb-seçilmiş, şəninə dastanlar yazılmış, mahnılar bəstələnmiş, türbələr ucaldılmışdır. Əsrlərdir ki, Naxçıvan torpağının bağrında ucalan, dünya mədəniyyət irsinin incilərindən olan Möminə xatun türbəsi qadın adına verilən ən ali dəyərin bariz nümunələrindəndir. Tarixin Möminə xatun, Sara xatun, Nüşabə, Tomris, Nigar, Həcər, Tutu Bikə kimi dövlətçilik, qəhrəmanlıq timsalı lider qadınları bu gün də var, sabah da olacaq. Fransız yazıçısı Aleksandr Dümanı öz ağlı, istedadı ilə mat qoyan Natəvan xanım, qızların maariflənməsi yolunda ömrünü şam kimi əridən, cəhalətə qarşı öncül mövqedə duran cəsarət nümunəsi Nazlı Tahirova, erməni daşnaklarına qarşı mübarizədə silaha sarılaraq kişi libasında kişi kimi döyüşən Zəhra Dünyamalıyeva, Azərbaycanın Milli qəhrəmanları Salatın Əsgərova, Hökümə Əliyeva kimi qadınlar mənsub olduqları ölkənin adını tarixdə uca tutmuşlar. Azərbaycan qadınının Şərqdə ilk dəfə seçib-seçilmək hüququ qazanmaları da yeni dövr tariximizin mühüm hadisələrindəndir.***

### Qadın zəkasına verilən qiymət

Ölkəmizin ictimai-siyasi həyatında qadınların rolunun artması və fəaliyyət dairəsinin genişləndirilməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Qadın zəkasına böyük qiymət verən dahi şəxsiyyət onların rəhbər vəzifələrə irəli çəkilməsinə, səslərinin beynəlxalq tribunalardan eşidilməsinə şərait yaratdı. 1995-ci ildə Pekin konfransında qadınlarımızın iştirakı müasir qadın hərəkatına yeni nəfəs gətirdi. 31 il əvvəl qəbul edilmiş Azərbaycan Konstitusiyasında qadınların kişilərlə bərabər hüququnu təsdiq edən ayrıca maddə və bəndlərdə təsbit edilməsi, ölkədə qadın hərəkatının daha da inkişaf etdirilməsi üçün 1998-ci ildə "Qadın Problemləri üzrə Dövlət Komitəsi"nin yaradılması, 2000-ci ildə imzalanan "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxarmışdır. 1998-ci ildən bəri hər beş ildən bir Azərbaycan qadınlarının qurultaylarının keçirilməsi Azərbaycanda qadın hərəkatının inkişaf tarixində əlamətdar hadisələrdən biri kimi qiymətləndirilir.

### Dövlət qadın siyasəti yeni mərhələdə

Dövlət qadın siyasəti Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Gender siyasətinin daha da gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün həyata keçirilən məqsədyönlü tədbirlər qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi baxımından uğurla nəticələnib. Qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması, ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin olunması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üçün 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

"Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nda da qadınların ictimai fəallığının artırılması, təhsil, məşğulluq, iqlim dəyişiklikləri ilə mübarizə və media sahələrində gender aspektlərinin nəzərə alınması, bu məqsədlə normativ-hüquqi bazanın, institusional mexanizmlərin təkmilləşdirilməsi və gender bərabərliyi mədəniyyətinin təbliğinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bu gün Azərbaycan qadını mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verir.

### Zərif güc, xeyirxah əməllər, örnək fəaliyyət

Birinci vitse-prezident Mehriban xanım Əliyeva hərtərəfli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Mehriban xanım Əliyevanın hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü işlər əsl örnəkdir. Ölkənin "yumşaq güc" siyasətinin təcəssümü olan Mehriban xanım Əliyevanın humanitar layihələri ölkəmizə yeni dostlar qazandırır.

Ölkənin Birinci vitse-prezidentinin rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir.

Birinci xanım atdığı humanist addımlarla, gördüyü nəcib işlərlə, sülhün bərqərar olması üçün göstərdiyi şücaətlə bütün insanlar üçün örnəyə çevrilib.

### Qadın gülərsə...

Əsrlərdən bəri qadınlar həm də milli dəyərlərimizin əsas daşıyıcı siması sayılırlar. Ana-nənələrimizin dilindən ruhumuza süzülən laylalar, Vətən ətirli bayatılar, dastanlar erkən yaşlardan bizə milli kimliyimizi tanıdıb, ana dilinə isti münasibəti aşılayıb, dəyərlərimizi sevdirib. Vətən kəlməsini də ana sözü ilə qoşa işlətmişik, Vətəni bizə ana ucalığında sevdiriblər. Bu gün də evlərdə tariximizi ilmə-ilmə yaşadan, analarımızın əsəri olan xalçalar, isмət və zərafət rəmzi olan kəlağayılar, xeyirxahlığı, mərhəməti aşılayan nağıl dolu sandıqlar qorunub saxlanılır. Dahi H.Cavid "Qadın gülərsə, şu issız mühitimiz güləcək, sürüklənən bəşəriyyət qadınla yüksələcək!" misraları ilə qadını poeziyanın ən yüksək zirvəsinə qaldıraraq bəşəriyyətin sülh carçısı kimi dəyərləndirmişdir. Bu gün Azərbaycan qadını azad, abad, suveren ölkəmizdə ictimai-siyasi proseslərin fəal iştirakçısıdır, müəllimdir, vəkildir, həkimdir, sahibkardır. Kəndlərdə yaşayan qadınlarımız fədakardır, zəhmətkeşdir, torpağa bağlıdır. Əkir-becərir, o da öz əməyi ilə cəmiyyətə töhfəsini verir. Əhalinin həssas qrupdan olan təbəqəsi də fəaliyyətsiz deyil. Qayğı ilə əhatə olunub, təhsil alır, məşğulluğa cəlb edilir. İşğaldan azad olunmuş ərazilərdə məskunlaşmış qadınlarımızın sığalı ilə bu torpaqlar da yaşıllaşır, gözəlləşir, evlər körpə gülüşləri ilə dolur.

Hər il 8 mart ölkəmizdə rəsmi bayram günü kimi qeyd olunur. Bayram ərəfəsində Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verilir, onlar orden və medallarla təltif edilirlər.

Qadın hər şeydən əvvəl anadır. Sevginin özüdür. Ailə dəyərlərinin qorunmasında başlıca qüvvədir. Oğlunu Vətən uğrunda şəhidlik zirvəsinə yola salarkən belə məğrur duruşunu itirməyən uca varlıqdır. Gücünüz, mərhəmətiniz, sevginiz heç zaman tükənməsin. Gününüz mübarək, əziz qadınlar!

✍ **Ruhiyyə RƏSULOVA**



İgidlərin anası, qəhrəman oğulların başçısı, cəsur döyüşçülərin qızı, xanımı Azərbaycan qadını. Ər igidlərin döyüş meydanındakı sadiq silahdaşı. Tarixin bütün dövrlərində qəhrəmanlığına, Vətən sevginə şahid olduğumuz qeyrətli Azərbaycan xanımı vaxt oldu döyüşçü oldu, gün oldu şəhidlik şərbəti içdi, ağlı ilə, cəsarəti ilə diz çökdürdü böyük hökmdarları. Tarixin hər səhifəsinə adını yazdırıb əbədi oldu. Türk tarixinin ilk qadın hökmdarı Tomris, Şərqdə ilk diplomat qadın Sara xatun, Möminə xatun, Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri, vətənpərvər, sədaqətli, qoçaq, kişilərlə birlikdə döyüşlərə atılan qeyrət nümunəsi qadınlarımız... Bugünkü müsahiblərimiz məğrur azərbaycanlı qadınlardan bir neçəsidir. Bir əsr ömrü geridə qoyan Gülşən nənə, güllə yağışı altında yaşayıb, evini tərk etməyib səngərdəki əsgərə çörək bişirən zaman düşmən gülləsinə tuş gələn Ceyran ana, həyat yoldaşı ilə birgə səngərdə çiyin-çiyinə döyüşən şəhid xanımı müharibə veteranı Səyyarə xanım və gələcəyin idmançısı balaca Xədicə...

# Hünər, cəsarət və qəhrəmanlıq nümunəsi

## 101 yaşlı Gülşən nənənin arzusu Şərur-Bakı qatarının səsini yenidən eşitməkdir



Qədim Şərur elinin İbadulla kəndində bir qoca yaşayır. Bir əsri geridə qoyub ömrünün 101-ci yaşını yaşayan Gülşən Mirzəyeva. On bir övlad böyüdüb, nəvə-nəticə yiyəsi olub. Yada salır keçmişin o çətin günlərini: "1941-1945-ci illər hər kəs kimi mənə də çətin və dözülməz idi. Kəndin bütün başı papaqlıları müharibəyə getmişdi, qadınlar həm kişi, həm də qadın işini görürdü. Bəzən çörək tapılmırdı yeməyə, yayda qurutduğumuz meyvələri qışda isti su ilə isladıb uşaqlara verirdik ki, acından ölməsinlər. İllər keçdi, müharibə bitdi, sonra sovetlər dağıldı və ən böyük müsibət – Qarabağ müharibəsi başladı. Bağrımız qan olsa da, əyilmədik, dözdük. 30 il elə hey qulağımız səsdə qaldı, nə vaxt qayıdar insanlarımız öz yurduna. Allah Heydər Əliyevə rəhmət eləsin, onun böyütdüyü oğul qəhrəmanları başına toplayıb torpaqları azad etdi ermənidən. Şükür Allaha, hər kəs evinə-eşiyinə qayıdır. Hərdən eşidirəm, nəvələrim danışır ki, Bakıya yenə qatarla gedə biləcəyik. Çox sevinirəm, yadıma həmin günlər düşür. Sanki qatarın fit səsini yenə eşidirəm. Xanlıqlarda qatara minərdik çox vaxt Bakıya getmək üçün (əli ilə İbadulla kəndindən heç də uzaq olmayan Xanlıqlar kəndini göstərir). Onun atası da (Heydər Əliyevi deyir) Naxçıvanı çox sevirdi, bizi ən çətin günlərdən Heydər Əliyev qurtardı. İnan ki, O olmasa idi, biz yaman günə qalmışdıq. Allah Ona rəhmət eləsin, İlham balamın ömürü də su qədər olsun. Allah ömür versə, bəlkə, bir də həmin qatarla, bir də həmin yolu gedərəm".

## Həyat yoldaşı ilə çiyin-çiyinə döyüşən qəhrəman qadın



Tarixin bütün dövrlərində həyat yoldaşı ilə çiyin-çiyinə döyüşən xanımlarımız olub və bu gün də var. Səyyarə xanım da onlardan biridir. Həyat yoldaşı Xanəli Nuriyev Azərbaycan Silahlı Qüvvələrində baş gizir olub, 26 aprel 1993-cü ildə Sədərək rayonu istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Həyat yoldaşı şəhidlik zirvəsinə ucalan Səyyarə xanım onun səngərdəki yerini özü tutub. O, Babək rayonunun Yuxarı Buzqov kəndində düşmənlə üz-üzə dayanıb. Naxçıvanın müharibə veteranı qadınlarındandır. 1990-cı illərin ən çətin günlərində həyat yoldaşını Vətənə qurban verən bu xanım bir an belə sınmayıb, kədərini ürəyində qürura çevirib, həm döyüşüb, həm də şəhidin yadigarı üç balasını böyüdüb. Üç övladını atasının adına, onun şərəfli xatirəsinə layiq böyütmək Səyyarə xanımın ən böyük təsəllisi və qürur mənbəyidir. Azərbaycan qadını məhz belə məqamlarda öz gücünü göstərir, ağrısını içində yaşadaraq, övladlarını Vətən sevgisi ilə böyüdərək şəhid adını uca tutur.

Azərbaycan qadını hər zaman ailəsinin dayağı, cəmiyyətin mənəvi sütunu olub. O, sevgi ilə qurur, səbirlə qoruyur, inamla yaşadır. Şəhid xanımı, müharibə veteranı Səyyarə Nuriyevanın timsalında isə bu güc daha aydın görünür.

## Məğrur Sədərəyin açıq səması ruhumu şad edir



1940-cı ilin sazaqlı yanvar ayının ilk günlərində Naxçıvanın qədim yurdu, dağların qeyrət qalası olan Sədərəyin o vüqarlı qoynunda açdım gözlərimi dünyaya. Mən həmin dağların qızı, qəhrəman ana Ceyran Məmmədovayam: "Bəli, təvəllüdüm ötən əsrin ortalarına dayansa da, mənim əsl ömrüm 1992-ci ilin o qanlı-qadalı günlərindən başlayır. Doğma yurdumuz, sığınacağımız olan Sədərək 1990-1993-cü illərdə düşmən atəşinin ağuşunda idi. Güllə səsləri qulağımızda uğuldayanda əlimizdə silah yox idi, amma dilimizdə dua, ürəyimizdə sarsılmaz bir Vətən sevgisi var idi. Biz qorxunu elə o günlərdə öldürmüşdük. Mənim analığım təkcə ocağımın başında bitmirdi. Mənim analığım Sədərəyin hər daşında, hər cığırında, hər səngərində idi. Dünyam isə 11 övladımdan ibarət idi. Onlara hər gün çörəkdən əvvəl Vətən sevgisini daddırırdım. Boya-başa çatana qədər hər birinin qulağına tək bir nəsihət pıçıldamışdım: "Balam, bu dağlar bizim evimizdir, biz isə onun sarsılmaz qalxanı. Bu torpağın hər qarışı sizin namusunuzdur. Nə olursa olsun, Vətəni qoruyun!"

1990-cı illərin o ağır, sınaq dolu günləri gələndə şahid oldum ki, balalarım nəsihətimi öz canlarına necə hopdurublar. Yeddi oğlumun yeddisi də təhlükəli döyüşlərin mərkəzində düşmənə sinə gərirdi. Qızlarımla birlikdə isə gah əlimdə isti yemək qazanları ilə postlara qaçır, gah da yaralılarımızın yarasını sarıyaraq dualarımla onlara sipər olurduq. Mənim üçün artıq öz canım yox, səngərdəki balalarımın nəfəsi var idi. Mən orada qalmaqla həm ana, həm də bir əsgər kimi öz andımı içmişdim.

1992-ci ilin 18 mayı. Səhərin o erkən saatlarında Sədərək yenə od içində idi. Saat düz doqquzu göstərəndə həmin an gəlib çatdı... Mənim bu dünyadakı ömür payım isə məhz o saniyələrdə Sədərəyin vüqarlı dağlarına, doğma torpağına qovuşdu. 1940-cı ilin soyuq yanvarında başlayan yolum 1992-ci ilin may səhərində müqəddəs bir şəhidlik zirvəsinə çevrildi. Əslində, mən ölmədim, o gün yenidən doğuldum – bir şəhid, sönməz bir məşəl kimi..."

## Kiçik ürəyin böyük xəyalları




Bəzən güc yaşla ölçülmür. Bəzən güc kiçik bir ürəyin içində böyük arzularla döyünür. Xədicə Bayramova da elə o balaca, amma iradəsi böyük olan qızlardandır. O, idmana cəmi 7 yaşında başlayıb. Bu yaşda bir çox uşaqlar oyuncaqlar arasında seçim edərkən Xədicə artıq öz yolunu seçmişdi, karate yolunu. Onun üçün bu seçim artıq gələcəyə atılan ilk inamlı addım idi.

Karate onun üçün yarışdan, ya da məşqdən daha çoxudur. Bu, nizam-intizam, səbir və özünə inamın onda formalaşmasının səbəbidir. Hər məşqdə atdığı addım, vurduğu zərbə, etdiyi hərəkət onun xarakterini bir az da möhkəmləndirir. Kiçik əllərində böyük bir güc, baxışlarında isə qətiyyət yaradır. Məhz bu mübarizə onu daha da böyüdür, daha da gücləndirir.

Bu gün Xədicə qarşısına daha böyük hədəf qoyub. O, aprel ayında keçiriləcək dünya çempionatına hazırlaşır. Bu yarış vasitəsilə əzmini və inamını bir daha sınaqdan keçirəcək. Yorulduğu anlar olsa da, geri çəkilməyi düşünmür. Çünki o artıq anlayır ki, uğur zəhmətin bəhrəsidir və onun zəhməti artıq öz bəhrəsini verib. 12 aprel 2024-cü ildə Xədicə dünya çempionu adını qazanaraq adını qaliblər sırasına yazdırıb. Bu qələbə o kiçik qızın böyük iradəsini göstərir, əslində. O gün tatamidə dalğalanan bayraq, səslənən alqışlar və gözlərindəki sevinc illərlə çəkilən zəhmətinin ən gözəl mükafatı olub, bəlkə də. Xədicə kimi balaca xanım idmançıların varlığı bir daha sübut edir ki, Azərbaycan qızları həm zərif, həm də güclüdürlər. Onların arzuları böyük, addımları isə inamlıdır. Bu balaca karateçi gələcəyin çempionu olmaq üçün bu gündən əzmlə çalışır və hər zərbəsində zərifliyin gücünü, iradəsini və qürurunu daşıyır. Onun hekayəsi göstərir ki, böyük uğurlar məhz kiçik, amma cəsarətli addımlarla başlayır.

*Bu gün Azərbaycan qadının daşıdığı ən böyük ad şəhid anası adıdır. Çünki o sübut etdi ki, öz canından çox sevdiyi balasını belə bu Vətənə qurban verməyə hazırdır. Bu gün dünyanın ən qürurlu qadını Azərbaycan qadınıdır. Çünki onun böyütdüyü oğullar bu Vətənin qanayan yarasına məlhəm oldu. Bir ovuc torpağı canından əziz bilib Vətəni bütövləşdirdi. Çünki onun qarşısında qoca dünya baş əydi.*

**"Şərq qapısı"**

# Beynəlxalq ictimaiyyət İranın Azərbaycana dron hücumunu pisləyib



Martın 5-də Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı İran İslam Respublikası tərəfindən Türkiyə istiqamətində raket hücumu, Azərbaycana edilən dron hücumu ilə bağlı qəti etiraz bildirilib. Bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu və regionda gərginliyin artmasına xidmət etdiyi vurğulanıb.

Naxçıvana olan təyyarə reyslərinin təhlükəsizliyin təmin edilməsi məqsədilə uçuşların müvəqqəti olaraq İğdır Hava Limanına təşkil olunacağı telefon danışığında qeyd olunub.

Telefon danışığı zamanı nazirlər iki ölkə arasında strateji müttəfiqlikdən irəli gələn əlaqələndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

***

Martın 5-də Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı Pakistan tərəfi Azərbaycana edilən dron hücumu ilə bağlı dərin narahatlığını ifadə edib.

Bölgədə geniş eskalasiyaya səbəb ola biləcək bu kimi addımların qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Ceyhun Bayramov İran tərəfindən qısa müddət ərzində məsələyə aydınlıq gətirilməsini və müvafiq izahat verilməsini gözlədiyimizi vurğulayıb.

Həmçinin Azərbaycan və Pakistan arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***

Martın 5-də Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir C.Bayramov mülki infrastruktur və şəxslərə zərərlə müşayiət olunan İran İslam Respublikası tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dronla həyata keçirilmiş hücumların suverenliyimizə və ərazi bütövlüyümüzə zidd olduğunu vurğulayıb.

İran İslam Respublikasından qeyd olunan məsələyə aydınlıq gətirilməsini, izahat verilməsini, üzrxahlıq edilməsini, bu kimi halların təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyimiz Qazaxıstan tərəfinin diqqətinə çatdırılıb.

Qazaxıstan naziri bu hücumlardan dərin narahatlıq ifadə edib, vəziyyətin daha da gərginləşməyəcəyinə ümidvar olduğunu bildirib.

***

Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev Azərbaycan Respublikasının xarici işlər nazirinə zəng vurub.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov qarşı tərəfə İranın dron hücumları barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücum beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasıdır və regionda gərginliyin artmasına xidmət edir. İran tərəfindən üzr istənilməsinin, məsələyə dair izahat verilməsinin və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün tədbirlərin görülməsinin tələb olunduğu diqqətə çatdırılıb.

Qırğız naziri Azərbaycan Respublikasının ərazisinə qarşı dron hücumlarının narahatlıq doğurduğunu, ölkəmizlə həmrəy olduğunu bildirib. Bu kimi hücumların regionda gərginliyin daha da artmasına xidmət etdiyi vurğulanıb.

Yaxın Şərqdə mövcud vəziyyətin daha da gərginləşməsinin qarşısının alınması, diplomatik səylərin artırılması və bu çərçivədə beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin vacibliyi qeyd olunub.

Nazir Ceenbek Kulubayev İranda olan Qırğız vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən tranzit keçidinə yaradılmış şəraitə görə ölkəmizə təşəkkür edib, operativ dəstəyin yüksək qiymətləndirildiyi bildirilib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraqdoğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Martın 5-də İsrail Dövlətinin xarici işlər naziri Gideon Sa'ar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı regionda artan təhlükəsizlik riskləri, xüsusilə hərbi gərginlik və bunun regional sabitliyə təsirləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dron hücumları barədə həmkarına məlumat verib. Bu addımın ölkəmizin suverenliyinə və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu diqqətə çatdırılıb.

İsrail tərəfi bu hücumu pisləyib, onun qəbuledilməz olduğunu qeyd edib və ölkəmizlə həmrəy olduğunu bildirib.

***

Səudiyyə Ərəbistanı Krallığı İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almağa cəhd etməsini qətiyyətlə pisləyib və bunu kəskin şəkildə qınayıb.

Səudiyyə Ərəbistanı XİN bu cür cəhdləri beynəlxalq qanunlara və qəbul olunmuş beynəlxalq normalara zidd olan düşmənçilik davranışı adlandırıb.

Nazirlik bəyanatında vurğulayıb ki, hər iki ölkəyə qarşı edilən bu qorxaq cəhdlər heç bir halda əsaslandırıla bilməyən düşmənçilik mövqeyini göstərir. Həmçinin bildirilib ki, İranın region ölkələrinə qarşı bu cür davranışları təkrarlaması gərginliyin daha da artmasına səbəb olur və regional təhlükəsizliyi və sabitliyi təhdid edir.

Bəyanatda, həmçinin qeyd olunur ki, Krallıq hökuməti və xalqı Türkiyə və Azərbaycanla tam həmrəy olduğunu bir daha bildirib, hər iki ölkənin öz təhlükəsizliyini, hava məkanını, ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq hüququnu dəstəklədiyini bir daha vurğulayıb. Həmçinin regionda eskalasiyanın qarşısını almaq, təhlükəsizliyi və sabitliyi qorumaq üçün göstərilən səylər yüksək qiymətləndirilib.

***

Küveyt Dövləti İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almasını qətiyyətlə pisləyib və bunu sərt şəkildə qınayıb.

Küveyt XİN bu cür cəhdləri beynəlxalq qanunların və BMT nizamnaməsinin açıq şəkildə pozulması hesab edir.

Nazirlik, həmçinin Küveyt Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

***

"Moldova Naxçıvan Muxtar Respublikasının mülki obyektlərini hədəf alan və iki mülki şəxsin yaralanması ilə nəticələnən hücumları qətiyyətlə pisləyir".

Bunu Moldovanın xarici işlər və inteqrasiya naziri Mixail Popşoy teleqram səhifəsində yazıb.

"Moldova Azərbaycanla həmrəydir və onun suverenliyinə, ərazi bütövlüyünə dəstəyini bir daha təsdiqləyir", – deyə nazir əlavə edib.

***

Martın 5-də Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili Azərbaycanın xarici işlər nazirinə zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı nazirlər İranın ölkəmizə qarşı dron hücumları nəticəsində yaranmış vəziyyəti müzakirə ediblər.

Nazir Ceyhun Bayramov həmkarına martın 5-də İran tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı həyata keçirilmiş dron hücumları barədə məlumat verib.

Nəticədə, Naxçıvan Muxtar Respublikasının hava limanının terminal binasına zərər dəyib, mülki şəxslər xəsarət alıb. Həmçinin dronlardan biri Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb.

Nazir Ceyhun Bayramov Azərbaycanın ərazisinə qarşı həyata keçirilmiş bu hücumun beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu və regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb.

Azərbaycan tərəfinin baş vermiş hücum ilə bağlı İran tərəfindən qısa müddət ərzində məsələyə aydınlıq gətirilməsini, müvafiq izahat verilməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlərin görülməsini tələb etdiyi diqqətə çatdırılıb.

Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili baş vermiş hadisə ilə bağlı narahatlığını ifadə edib və regionda sabitliyin və təhlükəsizliyin qorunmasının vacibliyini qeyd edib.

Telefon danışığı zamanı tərəflər qarşılıqlı maraqdoğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

***

İordaniya Haşimilər Krallığı Türkiyə və Azərbaycanın İran tərəfindən hədəfə alınmasını ən sərt ifadələrlə pisləyib.

İordaniya Xarici İşlər Nazirliyi bu hücumların hər iki dövlətin suverenliyini kobud şəkildə pozduğunu, eyni zamanda regionun təhlükəsizliyi və sabitliyini təhdid etdiyini, eləcə də təhlükəli eskalasiyaya yol açdığını bildirib.

Nazirlik, həmçinin İordaniyanın Türkiyə və Azərbaycanla tam həmrəy olduğunu vurğulayıb, onların suverenliyini, təhlükəsizliyini və vətəndaşlarının qorunması istiqamətində gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

***

İspaniya hökuməti İranın Türkiyə və Azərbaycana qarşı son hücumlarını kəskin şəkildə pisləyir.

İspaniya Xarici İşlər Nazirliyinin "X" səhifəsində bu barədə bildirilib.

Qeyd olunub ki, İranın mülki şəxsləri hədəf alan hücumları beynəlxalq hüquqa tamamilə ziddir. Ölkələrin suverenliyi və ərazi bütövlüyünün kobud şəkildə pozulması eskalasiya riskini artırır.

***

Monteneqro İran tərəfindən Azərbaycanın Naxçıvan bölgəsinə hücumu qətiyyətlə pisləyir.

Bu barədə Monteneqro Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

Qeyd olunub ki, bu cür hərəkətlər regional təhlükəsizliyə və sabitliyə ciddi təhdid yaradır.

"Gərginliyi azaltmaq və dialoqa qayıtmaq üçün təcili ehtiyac olduğunu vurğulayırıq. Monteneqro Azərbaycan xalqı ilə həmrəydir və dərhal gərginliyin azaldılmasına çağırır", – deyə məlumatda, həmçinin vurğulanıb.

***

Martın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, telefon danışığı zamanı nazirlər regionda baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər narahatlıqlarını ifadə edərək gərginliyin daha da artmasına səbəb ola biləcək addımlardan çəkinməyin vacibliyini qeyd edib, sabitlik və təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazir Ceyhun Bayramov erməni həmkarını martın 5-də Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilən, mülki infrastruktura ziyan vurulması və mülki şəxslərin xəsarət alması ilə nəticələnən dron hücumları barədə məlumatlandırıb.

Nazirlər Ermənistan və Azərbaycan arasında dayanıqlı sülhün təmin edilməsinin vacibliyini qeyd edib, qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Naxçıvan hər zaman lazımi dərəcədə müdafiə olunacaqdır



***"Bu gün Naxçıvan Ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin etdik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".*** Dövlət başçısının 2021-ci ilin may ayında Naxçıvana səfəri zamanı dediyi bu fikirlərdən yola çıxaraq bu gün fəxrlə yada salırıq ki, respublikamızda ilk milli ordunun yaradılmasının qərarı Ulu Öndər Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində verilib. Bu gün də ordu quruculuğu, şəxsi heyətin döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü işlər uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin artırılması və təhlükəsizliyinin təmin olunması Azərbaycan dövlətinin strateji prioritetlərindəndir. Ərazi bütövlüyünün qorunması, hərbi infrastrukturun modernləşdirilməsi, Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və sərhəd mühafizəsinin gücləndirilməsi daim xüsusi diqqət mərkəzindədir. Naxçıvanın Türkiyə və İranla həmsərhəd olması, Ermənistanla isə uzun sərhəd xəttinə malik olması onun müdafiəsini hərbi-siyasi baxımdan vacib edir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Qürurla deyə bilərik ki, Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrin də maddi-texniki təminatı və hazırlıq səviyyəsi günün tələbləri nəzərə alınaraq gücləndirilib, yüksək döyüş hazırlığı baxımından müasir dünya ordularından heç də geri qalmayan Əlahiddə Ümumqoşun Ordusu muxtar respublikanın təhlükəsizliyinin qarantına çevrilib.

Ordu bütün döyüş tapşırıqlarını hər an layiqincə yerinə yetirməyə qadirdir. 2013-cü ildə muxtar respublikanın hərbi təhlükəsizlik sistemini daha da gücləndirmək üçün tarixi əhəmiyyətə malik qərarlar qəbul olunub, lazımi addımlar atılıb. Müasir dövrün reallıqlarını nəzərə alan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təkcə ölkəmiz üçün deyil, ümumilikdə, Cənubi Qafqaz regionu və bütün Türk dünyası üçün mühüm strateji məkan kimi böyük əhəmiyyət kəsb edən Naxçıvanın müdafiə qabiliyyətinin artırılması məqsədilə Əlahiddə Ümumqoşun Ordunun yaradılması bunun ən bariz nümunəsidir. Ölkəmiz üçün böyük əhəmiyyətə malik olan bu dövlət sənədinin dəqiqliklə icrası nəticəsində Naxçıvanın müdafiə qabiliyyəti daha da artıb, bir mərkəzdən idarəetmə təkmilləşdirilib və nəticədə, daha effektiv müdafiə sistemi qurulub.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə danışarkən deyib: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilib. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***

Beynəlxalq hərbi ekspertlərin ümumi rəyi belədir ki, istənilən ordunun döyüş qabiliyyətini, gücünü yalnız hərbi təlimlərdə və müharibədə müəyyənləşdirmək olar. Əlahiddə Ümumqoşun Ordunun istər hərbi təlimlərdə iştirakı zamanı nümayiş etdirdiyi döyüş qabiliyyəti, istərsə də təcavüzkar düşmənin təxribatlarına tutarlı cavab zərbələri onun gücünü və qüdrətini göstərir. Dəfələrlə Naxçıvan Muxtar Respublikasında keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində Əlahiddə Ümumqoşun Ordu nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda dünyanın supergücü olan Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə eyni səviyyədə güc nümayiş etdirib. Əlahiddə Ümumqoşun Ordunun gecə şəraitində keçirdiyi taktiki təlimlər də şəxsi heyətin peşəkarlığının yüksək səviyyədə olduğunu sübuta yetirib. Bu gün əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malik olan Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi qurub. Strateji yüksəkliklərdə belə bir müdafiə sisteminin yaradılması düşmənin hərəkət imkanlarını xeyli məhdudlaşdırır, istənilən təxribatlara adekvat cavab vermək imkanı yaradır. Əlahiddə Ümumqoşun Ordunun ətrafdakı ərazilərə maneəsiz nəzarət etməsi ona həm də istənilən hədəfi dəqiqliklə yox etmək imkanı verir. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində Naxçıvanın sərhədlərində güllə səsi eşidilmədi. Ermənistan mətbuatı bu gün Azərbaycanın əsas ərazisindən ayrı salınmış Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordudan söz açarkən diqqəti, ilk növbədə, təmas xəttindəki hakim yüksəkliklərə, orada qurulmuş müdafiəyə yönəldir.

Muxtar respublikanın strateji yüksəkliklərində etibarlı müdafiə sisteminin qurulması, burada Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlərin xidmət şəraitinin daim diqqətdə saxlanılması, maddi-texniki təminatın gündən-günə daha da yaxşılaşdırılması hər birimizdə qürur hissləri ilə bərabər, əminlik də yaradır. Çətin dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər torpaqlarımızı etibarlı surətdə qoruyurlar. Güclü maddi-texniki təminat və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır.

Bu gün sərhədlərdə xidmət üçün zəruri olan hər bir şərait yaradılıb. Postlar ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq yerləşdirilib, lazımi yerlərdə müxtəlif mühəndis-istehkam qurğuları yaradılıb, ön xəttin müdafiə qabiliyyəti xeyli gücləndirilib. Dayaq məntəqələri və postlar arasında yol və daimi rabitə əlaqələri yaradılıb, onların hər biri müasir döyüş texnikaları, artilleriya qurğuları ilə və atıcı silahlarla təmin olunub. Müşahidə zonasının daimi nəzarətdə saxlanması təmin edilib. Müasir müşahidə cihazları vasitəsilə qarşı tərəfin mövqeləri istənilən hava şəraitində müşahidə olunur. Maddi-texniki təminatla yanaşı, yüksək dağlıq şəraitində xidmət keçən şəxsi heyətin döyüş hazırlığına da ciddi diqqət yetirilir. Təmas xətti boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın durmadan möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqətdə saxlanılır, əsgər və zabitlər xidməti vəzifələrini şərəf və ləyaqətlə yerinə yetirirlər.

Sərhədlərin etibarlı qorunması insanlarda arxayınlıq, əminlik yaradır. Bu, muxtar respublikada etibarlı müdafiə sisteminin qurulması, hərbi təhlükəsizliyin təmin olunması, yüksək döyüş hazırlığına malik Əlahiddə Ümumqoşun Ordunun strateji yüksəkliklərə tam nəzarət etməsi, ordu sıralarında xidmət edən, ürəyi Vətən sevgisi ilə dolu olan hərbçilərimizin sayəsində mümkün olub. Gecə-gündüz yağış, qar, şaxta, isti – fərqi yoxdur, onlar əllərində silah, müqəddəs andla torpağımızı qoruyurlar. Canları, qanları bahasına olsa belə. Çünki bu gün Vətənin sərhədindəki bu postlarda dayanan əsgərlərin damarlarında qanla bərabər Vətən sevgisi də axır. Onlar Şah İsmayılın, Babəkin, Koroğlunun nəticələri, Poladın, Mübarizin davamçılarıdır. Çünki bu dövlətin Ulu Öndər kimi qurucusu, öz ordusu ilə 30 illik yolu 44 gündə gedən, dünyaya öz güclü zəkası, siyasi gücü ilə dərs keçən, həm diplomatik, həm də döyüş meydanında düşmənə dərs verən Ali Baş Komandanı var. Torpağımıza göz dikən kimsələrin heç bir təxribatı, heç bir həmləsi bizi qorxuda bilməz. Çünki ordumuz gündən-günə daha da güclənir. Çünki bu yurd qəhrəmanlar, nər igidlər yurdudur. Bu yurd 14 il Əlincədə, 30 il Sədərəkdə, Şadada düşmənə sinə gərən oğulların, özü ac yatıb çörəyi səngərdəki əsgərə göndərən anaların yurdudur. Çünki bu yurd Azərbaycanın təməl daşı, döyünən ürəyi Naxçıvandır.

✍ Ramiyə ƏKBƏROVA



# Şərurda suvarma infrastrukturu yenilənir: kənd təsərrüfatına mühüm töhfə veriləcək

Naxçıvan Muxtar Respublikasının iqlim tipi isti və yağıntının az olması ilə xarakterizə olunduğundan su ehtiyatlarının düzgün idarə olunması burada xüsusi əhəmiyyət daşıyır. İqlimin quraq keçməsi, su mənbələrinin məhdudluğu və torpaqların şoranlaşmaya meyilli olması kənd təsərrüfatında suvarma sistemlərinin dayanıqlı və səmərəli qurulmasını zəruri edir. Məhz bu baxımdan su təsərrüfatı infrastrukturunun yenilənməsi və müasir tələblərə uyğunlaşdırılması bölgənin inkişafı üçün prioritet məsələlərdən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi 2026-2030-cu illəri əhatə edən Tədbirlər Planı da Naxçıvanda su ehtiyatlarından daha səmərəli istifadəni və suvarma sistemlərinin mərhələli şəkildə təkmilləşdirilməsini nəzərdə tutur.

Plana əsasən Şərur rayonunda su təsərrüfatı infrastrukturunun yenidən qurulması və müasir tələblərə uyğun təkmilləşdirilməsi istiqamətində mərhələli və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bu layihələr rayonun suvarma sisteminin dayanıqlığının artırılması, su itkilərinin azaldılması və kənd təsərrüfatının su təminatının daha etibarlı şəkildə qurulması məqsədi daşıyır.

Belə ki, 2027-2029-cu illər ərzində rayon ərazisində Araz çayından qidalanan nasos stansiyalarının, eləcə də mövcud təzyiqli boru xətlərinin yenidən qurulması planlaşdırılır. Uzun illər istismarda olan bu qurğuların modernləşdirilməsi suyun daha səmərəli və fasiləsiz şəkildə əkin sahələrinə çatdırılmasına imkan yaradacaq. Yenidənqurma işləri çərçivəsində köhnəlmiş avadanlıqların dəyişdirilməsi, texniki göstəricilərin müasir standartlara uyğunlaşdırılması və sistemin ümumi ötürücülük qabiliyyətinin artırılması nəzərdə tutulur. Bununla yanaşı, 2028-2030-cu illərdə Arpaçaydan qidalanan mövcud hidrotexniki qurğuların da əsaslı şəkildə yenidən qurulması həyata keçiriləcək. Bu tədbirlər çayın su ehtiyatlarından daha səmərəli istifadə olunmasına, suvarma prosesində yaranan itkilərin minimuma endirilməsinə və əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək.

Eyni zamanda Şərurun Püsyan, Tumaslı və Xanlıqlar kəndləri ərazisində kollektor-drenaj şəbəkələrinin tikintisi ilə bağlı texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması da planlaşdırılır. Bu addım torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, şoranlaşmanın qarşısının alınmasına və kənd təsərrüfatı üçün yararlı sahələrin daha səmərəli istifadəsinə şərait yaradacaq.

Ümumilikdə, Şərur rayonunda həyata keçiriləcək tədbirlər kənd təsərrüfatının inkişafına, əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılmasına mühüm töhfə verəcək. Eyni zamanda bu layihələr su ehtiyatlarından daha səmərəli istifadəni təmin etməklə, ümumilikdə, ərazinin sosial-iqtisadi inkişafına, əhalinin rifah halının yüksəlməsinə və dayanıqlı infrastrukturun formalaşmasına xidmət edəcək.

Həyata keçiriləcək layihələr suvarma sisteminin dayanıqlığını artırmaqla yanaşı, su itkilərinin azaldılmasına və kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsinə xidmət edəcək. Görüləcək işlərin təsərrüfatçılar üçün nə dərəcədə əhəmiyyətli olduğunu öyrənmək üçün Şərur rayonunun Xanlıqlar kəndində uzun illərdir, kənd təsərrüfatı ilə məşğul olan sakinlə həmsöhbət olduq.

İsa Salmanov 40 ildən artıqdır ki, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərir. O, uzun illərdir, torpaqda zəhmət çəkir və bu sahəni özünün əsas dolanışıq mənbəyi hesab edir. 2025-ci ilin payız mövsümündə 30 hektar sahədə taxıl əkini aparıb. Hazırda isə yaz əkininə başlayıb: 3 hektar qarğıdalı, 3 hektar kartof və digər yazlıq bitkilərin becərilməsi ilə məşğuldur.

Təsərrüfatçı qeyd edir ki, əkin sahələrinin suvarma suyunu Arpaçay su anbarının sol sahilindən götürürlər: "Lakin mövcud kanalların dolması, hidrotexniki qurğuların və təzyiqli boru xətlərinin istismar müddətinin başa çatması suvarmada çətinliklər yaradır. Bu isə su itkilərinə səbəb olur və əkinlərin vaxtında, lazımi həcmdə suvarılmasına maneə törədir".

Onun sözlərinə görə, su təsərrüfatı infrastrukturunun yenilənməsi həm Xanlıqlar kəndində, həm də, ümumilikdə, Şərur rayonunda



fəaliyyət göstərən təsərrüfatçılar üçün mühüm əhəmiyyət daşıyır: "Qurğuların müasirləşdirilməsi suyun daha səmərəli paylanmasına, itkilərin azalmasına və suvarma prosesinin sabitləşməsinə imkan verəcək. Bu isə, öz növbəsində, məhsuldarlığın artmasına, fermerlərin daha yüksək gəlir əldə etməsinə və kənd təsərrüfatının dayanıqlı inkişafına şərait yaradacaq".

İsa Salmanovun fikrincə, gələcəkdə damcı və yağmurlu suvarma sistemlərinə keçid suya qənaət etməyə və torpaqdan daha səmərəli istifadə etməyə imkan verəcək. O, dövlət tərəfindən kənd təsərrüfatına və su infrastrukturunun yenilənməsinə göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək həyata keçirilən tədbirlərin rayonun inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

**Zəhra VƏLİYEVA**

# Dövlət qayğısı Sədərək rayonunun su ilə təminatını yaxşılaşdıracaq

Yurdumun alınmaz qalası Sədərək həm təbiətlə, həm də düşmənlə uzun illər mübarizə aparıb. Vaxtilə üzüm bağlarının barı, gül istixanalarının qərənfillərinin sorağı uzaq Rusiyanın şəhərlərindən gəlirdi. Sonra həm düşmənlə, həm də susuzluqla mübarizəyə başladı bu qədim yurd. Düşmən mərmisi ilə dağılan üzümlüklər, istixanalar həm də mənfurların rayonun su mənbəyi olan "Şirarxı"nın qarşısını kəsməsi ilə quruyub xəzana döndü. Elə gün oldu ki, bahar çiçəkləri şəhid qanı ilə sulandı bu torpağın, amma solmadı. Qeyrətli naxçıvanlılar solmağa qoymadı Sədərəyin bahar çiçəklərini. Dədə Qorqudun nəsihətini yerinə yetirib torpağı həm qoruyur, həm də əkib-becəririk. Muxtar respublikanın susuzluqdan ən çox əziyyət çəkən bölgəsi olan Sədərəkdə insanlar illərdir, alın tərini torpağa qatır, onu qurumağa qoymurlar. Ölkə başçısının fevralın 21-də imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. Bu Sərəncam sədərəklilərin də qəlbinə, necə deyərlər, "su səpib".

Sədərək kənd sakini Eldəniz



Məmmədov 50 hektara yaxın ərazidə arpa, buğda əkini aparır. Onunla həmsöhbət olduğumuzda dedi: "Rayonun torpağı digər ərazilərimizdən fərqli olaraq daha quru və suya ehtiyac duyan torpaqdır. Buğda və arpa əkini (payızlıq) sentyabr-oktyabr aylarında torpağın şumlanması, gübrələnməsi və toxumların səpilməsi ilə başlayır. Payızın və qışın yağıntılı keçməsi məhsuldarlığa təsir edir. Suvarma suyuna olan tələbatın ödənilməsi isə çox vacibdir. Arpaçay dəryaçasının Aşağı Yaycı kəndi ərazisindəki supaylayıcı qurğusundan qidalanan sağ və sol sahil kanalları, həmçinin çayın yatağı ilə təkcə Şərurun yox, həm də Sədərək və Kəngərli rayonlarının torpaq sahələri suvarma suyu ilə təmin edilir. Dövlət başçısının Sərəncamı ilə görüləcək işlər bundan sonra da Sədərək rayonunun suvarma suyuna olan ehtiyacının ödənilməsində mühüm rol oynayacaq. Dövlət başçısına minnətdarıq".

Muxtar Nəsirov Sədərək kəndində üzümçülüklə məşğul olan zəhmətkeşlərdəndir. O dedi: "Vaxtilə bu ərazilərdə böyük üzüm bağları var idi. İnsanlar hər il tonlarla üzüm toplayır, ra-



yon ərazisində yerləşən şərabçılıq zavoduna təhvil verirdi. 1990-cı illərin hadisələrindən sonra rayon ərazisinə həyat bəxş edən "Şirarxı"nın qarşısı ermənilər tərəfindən kəsildi. Üzüm bağları məhv oldu. Əvvəllər burada elə ev tapılmazdı ki, həyətində gül istixanası olmasın. Məlum problemlər həmin istixanaların da məhv olmasına gətirib çıxardı. Ulu Öndərin gəlişi ilə yurdumuz işıqlı günlərə qədəm qoydu. Dövlətimiz düşmən mərmisinin zərbələri nəticəsində dağılan evləri yenidən qurub rayon sakinlərini yaxşı şəraitlə təmin etdi. Biz isə əlimizdən gələni edir. Sədərəyi yaşıllıqlar diyarına çevirməyə çalışırıq. 35 il öncə buraya qədəm qoyanlar bu gün Sədərəyi görəndə etiraf edir ki, bura çox dəyişib. Biz dövlətimizə inanıb bunu bacarırıq. Hər addımda dövlət başçısının qayğıkeş əlini çiynimizdə hiss edirik. Prezident İlham Əliyevin imzaladığı Sərəncam Novruz bayramı ərəfəsində hər kəsə bayram sevinci bəxş etdi. Əminik ki, görüləcək işlər nəticəsində rayonda üzümçülük inkişaf etdirilib əvvəlki şöhrətinə qovuşacaq. Sədərək rayonu ərazisində yerləşən və Araz çayından qidalanan hidrotexniki qurğuların əsaslı təmiri ilə suvarma suyuna olan ehtiyac ödəniləcək. Bu da kəndlini əkib-becərməyə həvəsləndirəcək".

Sədərək kənd sakini, kiçik sahibkar Mehbarə Hüseynova ilə həmsöhbət oluruq: "Ətəyindən Araz çayı



keçməsinə baxmayaraq, Sədərəyin su problemi illərdir, həll edilməmiş vəziyyətdə qalırdı. Əkinlərin, bağların suvarma, insanların içməli suya olan ehtiyacı tam ödənilə bilmirdi. Kənd camaatı içməli suyu evindən uzaq məsafədən gətirirdi. Ölkə başçısının imzaladığı Sərəncam bizim sevincimizə səbəb oldu. Sədərək rayonunun Heydərabad qəsəbəsinin, Qaraağac və Sədərək kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması ilə bu elin insanlarının içməli suya olan tələbatı tam olaraq ödəniləcək. Dövlət başçısına minnətdarıq. Ulu Öndərin layiqli davamçısının diqqət və qayğısı ilə Sədərək bundan sonra da inkişaf edəcək, insanlar firavanlıq içərisində yaşayacaqlar".

"Su həyatdır", – deyirlər. Su elə həyatın özü qədər böyük və dəyərlidir. Muxtar diyarın hər bir sakini də hər damla suyun nə qədər qiymətli olduğunu yaxşı bilir və dövlətimizin yaratdığı şəraitdən maksimum istifadə edərək ümumi işə öz töhfəsini verməyə çalışır.

**"Şərq qapısı"**



# Prezident İlham Əliyevin strateji baxışı fonunda Naxçıvanın enerji inkişaf modeli



**Asim ABDULLA**
*Naxçıvan Dövlət Universitetinin müəllimi, Elektroenergetika yüksək mühəndisi, doktorant*

**Azərbaycan dövlətinin inkişaf strategiyasında Naxçıvan Muxtar Respublikası hər zaman xüsusi yer tutmuşdur. Bu yanaşma xüsusilə Prezident İlham Əliyevin rəhbərliyi dövründə ardıcıl, məqsədyönlü və sistemli dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. Muxtar respublikanın sosial-iqtisadi, enerji, nəqliyyat, infrastruktur, sənaye, kənd təsərrüfatı və insan kapitalı sahələrində həyata keçirilən kompleks proqramlar Naxçıvanın davamlı və dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət etmişdir.**

**Naxçıvanın coğrafi baxımdan blokada şəraitində olması, regional geosiyasi reallıqlar və logistika məhdudiyyətləri dövlət siyasətində bu əraziyə xüsusi strateji yanaşmanı zəruri etmişdir. Məhz bu kontekstdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində muxtar respublikada müasir infrastruktur qurulmuş, avtomobil yolları və hava nəqliyyatı infrastrukturu yenilənmiş, enerji və qaz təchizatı sistemləri modernləşdirilmiş, sosial obyektlər – məktəblər, xəstəxanalar və inzibati binalar inşa edilmişdir. Bu tədbirlər regionun milli iqtisadi sistemə inteqrasiyasını daha da gücləndirmişdir.**

Dövlət başçısının diqqəti xüsusilə enerji təhlükəsizliyi məsələsində özünü aydın şəkildə göstərir. Naxçıvanın enerji təminatının şaxələndirilməsi, yerli generasiya güclərinin artırılması və bərpa olunan enerji potensialının reallaşdırılması Prezidentin müəyyən etdiyi strateji inkişaf kursunun mühüm istiqamətlərindəndir. Muxtar respublikanın "yaşıl enerji zonası" kimi inkişaf etdirilməsi təşəbbüsü yalnız ekoloji deyil, həm də iqtisadi və geosiyasi baxımdan strateji əhəmiyyət daşıyır. Bu yanaşma Naxçıvanı gələcəkdə regional enerji istehsalı və ixrac mərkəzinə çevirməyi hədəfləyən milli enerji siyasətinin tərkib hissəsidir.

Prezident İlham Əliyevin verdiyi tapşırıqlar, təsdiq olunan Dövlət proqramları və ayrılan investisiyalar, eyni zamanda sənayeləşmə və sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən təşviq mexanizmləri, vergi və investisiya güzəştləri, yerli istehsalın dəstəklənməsi Naxçıvan iqtisadiyyatının şaxələndirilməsinə və daxili bazarın güclənməsinə şərait yaratmışdır. Aqrar sektorun modernləşdirilməsi, suvarma sistemlərinin yenilənməsi və ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması isə regionun ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, Prezidentin Naxçıvana xüsusi diqqəti epizodik xarakter daşımır, bu, uzunmüddətli və strateji dövlət kursunun ayrılmaz tərkib hissəsidir. Bu kurs muxtar respublikanın iqtisadi müstəqilliyini möhkəmləndirməyə, enerji və logistika imkanlarını genişləndirməyə, insan kapitalını gücləndirməyə və Naxçıvanı ölkənin ümumi inkişaf modelinin aparıcı regionlarından birinə çevirməyə yönəlmişdir.

Naxçıvan Muxtar Respublikasının enerji və ümumilikdə, iqtisadi inkişaf modelinin davamlılığı yalnız infrastruktur və investisiya layihələri ilə deyil, eyni zamanda yerli kadr potensialının formalaşdırılması ilə şərtlənir. Prezident İlham Əliyevin həyata keçirdiyi strateji kurs çərçivəsində insan kapitalının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu yanaşma Naxçıvanda da sistemli şəkildə tətbiq olunur.

Son illərdə muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni ixtisasların açılması və əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təşkili diqqət mərkəzində saxlanılmışdır. Xüsusilə enerji mühəndisliyi, elektrik sistemləri, alternativ enerji texnologiyaları, iqtisadiyyat və idarəetmə sahələrində mütəxəssis hazırlığı regionun gələcək inkişaf modelinin əsas dayaqlarından biri kimi qiymətləndirilir.

Naxçıvanın "yaşıl enerji zonası" kimi formalaşdırılması yalnız texnoloji yenilik deyil, həm də müasir bilik və kompetensiyalara malik insan resurslarının yetişdirilməsini tələb edən strateji transformasiyadır. Günəş və digər bərpa olunan enerji stansiyalarının qurulması, şəbəkə infrastrukturunun modernləşdirilməsi və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi yerli mütəxəssislərin bilik və bacarıqlarının artırılmasını zəruri edir.

Ötən həftə Energetika Nazirliyində keçirilən geniştərkibli görüşdə imzalanmış müqavilələr Naxçıvanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və regional enerji xəritəsində mövqeyinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. İllik 122 milyon kVt/st elektrik enerjisi istehsalı, 26 milyon kubmetr qaza qənaət və 57 min ton karbon emissiyasının azaldılması göstəriciləri yalnız iqtisadi deyil, həm də siyasi-strateji nəticələr doğurur. Bu layihələr Azərbaycanın enerji keçidi siyasətinin real və praktiki icrasının nümunəsidir.

Dövlət-özəl sektor sinerjisi isə yeni iqtisadi modelin əsas sütunlarından birinə çevrilmişdir. Bu əməkdaşlıq mexanizmi Naxçıvanın regional enerji mərkəzi kimi mövqeyini möhkəmləndirməklə yanaşı, Azərbaycanın ümumi geoiqtisadi strategiyasına uyğun şəkildə regionun beynəlxalq enerji platformalarına inteqrasiyasını sürətləndirir.

İmzalanan müqavilələr bir daha təsdiqlədi ki, Naxçıvanın enerji inkişafı təsadüfi təşəbbüslər toplusu deyil, düşünülmüş, ardıcıl və siyasi iradəyə əsaslanan dövlət strategiyasının məntiqi davamıdır. Dövlət başçısının müəyyən etdiyi "yaşıl enerji zonası" hədəfi artıq konkret investisiya qərarları və real istehsal göstəriciləri ilə möhkəmlənmişdir. Bu sənədlər Naxçıvanın yalnız enerji təhlükəsizliyini deyil, həm də regional geoiqtisadi mövqeyini gücləndirən strateji addımlar kimi tarixə düşür.

**Naxçıvan Muxtar Respublikasında elektroenergetika sahəsində həyata keçirilən layihələrə bütöv şəkildə baxıldıqda təkcə texniki modernləşmə deyil, uzunmüddətli siyasi-iqtisadi strategiyanın ardıcıl şəkildə reallaşdığı aydın görünür. Muxtar respublikanın coğrafi mövqeyi, regional nəqliyyat dəhlizlərinə yaxınlığı, Türkiyə Respublikası ilə quru sərhədinin mövcudluğu və perspektivdə Avropa enerji bazarlarına çıxış imkanları Naxçıvanı klassik istehlakçı regiondan potensial enerji qovşağına çevirmək üçün real zəmin yaradır. Bu baxımdan, elektroenergetika infrastrukturu üzrə ilkin layihələndirmə işlərinin Avropa Enerji Birliyinin ENTSO-E texniki tələblərinə uyğunlaşdırılması sırf texniki seçim deyil, Naxçıvanın gələcək enerji diplomatiyasına hazırlıq mərhələsi kimi qiymətləndirilə bilər. Mövcud və perspektiv elektroenergetika infrastrukturunun – generasiya və ötürmə sistemlərinin mərhələli şəkildə yenilənməsi enerji ixrac potensialının artırılmasına, sistemin etibarlılığının və dayanıqlığının təmin olunmasına xidmət edir. Yeni müasir yarımstansiyaların və ikidövrəli ötürücü xətlərin tikintisi hesabına enerji təminat sxeminin yenidən qurulması, faktiki olaraq Naxçıvan enerji sistemini köhnə, riskli və lokal strukturdan çıxarıb çevik və regional inteqrasiyaya açıq modelə transformasiya edir.**

## Azərbaycanın enerji xəritəsində Naxçıvan elektroenergetika strategiyası

Enerji balansında sabitliyin qorunması və regionun artan enerji tələbatının qarşılanması məqsədilə dövlət-özəl tərəfdaşlığı çərçivəsində müasir texnologiyalarla təchiz olunacaq yeni istilik elektrik stansiyasının tikintisi üzrə işlərin icrası planlaşdırılır. Bu yanaşma enerji sektorunda təkcə dövlət investisiyalarına söykənən modeldən daha çevik, kapital və texnologiya axınına açıq mexanizmə keçidi göstərir. Paralel olaraq Naxçıvanda müvafiq gücdə BOEM-lərin və enerji saxlanc qurğularının mərhələli şəkildə reallaşdırılması sistemin çevikliyini artırır, pik yüklənmələr zamanı sabitliyi qoruyur və ixrac imkanları üçün zəruri baza infrastrukturunu formalaşdırır. Çevirici yarımstansiyanın tikilməsi, Türkiyəyə elektrik enerjisinin ötürülməsi, eləcə də Cəbrayıl qovşaq yarımstansiyasından muxtar respublikaya 330 kV-luq yeni ikidövrəli elektrik veriliş xəttinin çəkilməsi Naxçıvanın Azərbaycanın əsas enerji sisteminə inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanın əsas ötürücü şəbəkəsi ilə birbaşa əlaqə Naxçıvanın enerji təhlükəsizliyini ümummilli enerji strategiyasının tərkib hissəsinə çevirir. "AzərEnerji" ASC tərəfindən hazırlanmış elektroenergetika strategiyası çərçivəsində 2025-ci il üçün layihələndirilən və icrasına başlanmış işlər Naxçıvanda elektroenergetika sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Regional Rəqəmsal İdarəetmə və SCADA mərkəzinin yaradılması enerji sisteminin mərkəzləşdirilmiş, rəqəmsal və operativ idarə olunmasına şərait yaradır. Uzun illərdir, istismar olunan 154/110/10 kV "Babək", 110/35/10 kV "Naxçıvan", 110/35/10 kV "Çeşməbasar" yarımstansiyalarının gücünün artırılaraq yenidən tikilməsi, eləcə də "Culfa" yarımstansiyasının 132/110/35/10 kV gərginlik pilləsində yeni ərazidə yenidən qurulması köhnə qurğu və avadanlıqların müasir tələblərə uyğunlaşdırılması yeni keçid prosesinin formalaşdırılmasının bariz nümunələridir.

1960-1970-ci illərdə istismara verilmiş bir çox 110 kV-luq elektrik veriliş xətlərinin ikidövrəli formada yenidən tikilməsi ötürmə gücünü artırmaqla yanaşı, qəza risklərini də azaldır. Naxçıvan şəhərində 110 kV-luq elektrik verilişi xətlərinin yerinin dəyişdirilərək yenidən tikintisi, bununla paralel olaraq xətlərin müvafiq hissələrinin kabel xəttinə keçirilməsi sosial təhlükəsizlik və şəhərsalma baxımından da mühüm addım kimi çıxış edir. Naxçıvan və İran enerji sistemləri arasında mövcud olan 132 kV-luq xəttin yenidən tikilməsi regional enerji əlaqələrinin texniki əsaslarının gücləndirilməsinə xidmət edir. Uzun illərdir, istismar olunan 110 kV-luq elektrik verilişi xətlərinin yenilənməsi muxtar respublikanın elektrik enerjisi təhlükəsizliyinə və dayanıqlılığını şərtləndirən amildir.

Bütün bu tədbirlər fonunda "Naxçıvan Enerji" MMC-nin inzibati binasının, Regional Rəqəmsal Dispetçer və SCADA mərkəzinin, tədris, laboratoriya və texniki baza obyektlərinin yaradılması insan kapitalının və institusional idarəetmənin gücləndirilməsinə xidmət edir. Bu isə enerji sektorunda dayanıqlı inkişafın yalnız infrastrukturla deyil, kadr və idarəetmə potensialı ilə təmin edildiyini göstərir. Nəticə etibarilə, Naxçıvan Muxtar Respublikasında elektroenergetika sahəsində aparılan işlər iqtisadi müstəqilliyin möhkəmləndirilməsi, regional inteqrasiya imkanlarının genişləndirilməsi və siyasi manevr imkanlarının artırılması baxımından strateji xarakter daşıyır. Enerji infrastrukturu üzərindən qurulan bu yeni model Naxçıvanı təkcə daxili tələbatını ödəyən region deyil, regional enerji əməkdaşlığında söz sahibi olan subyekt kimi formalaşdırmağa yönəlib.

**Rafiq TƏHMƏZ**



# Naxçıvan:

## qədim karvan yolundan müasir nəqliyyat qovşağına

Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan coğrafi mövqeyi, strateji əhəmiyyəti və qədim tarixi ilə seçilən diyardır. Bir bölgənin inkişafı təkcə onun mədəni irsi və sənaye potensialı ilə deyil, həm də insanların hərəkətini, əlaqəsini və gündəlik həyatını təmin edən yol şəbəkəsi ilə də ölçülür. Yol tikintisi ölkənin inkişafı, vətəndaşların firavan yaşayışı deməkdir. Müasir yol şəbəkələri olmadan yüksək iqtisadi nailiyyətlər əldə etmək mümkün deyil. Ümummilli Lider Heydər Əliyevin də dediyi kimi: ***"Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir".*** Buna görə də



Naxçıvanda yol infrastrukturunun yenilənməsi, genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması diqqətdə saxlanılır.

Azərbaycanda yol-nəqliyyat kompleksinin inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat sahəsində də əsaslı dəyişikliklərə və inkişafa təkan verilmiş, avtomobil yollarının bərpası və yenidən qurulmasına əlverişli şərait yaranmışdır. Dahi rəhbərin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də nəqliyyat sektorunun inkişafını prioritet istiqamət kimi müəyyənləşdirmişdir. Son illər yol-nəqliyyat sistemində, xüsusilə avtomobil yolları ilə bağlı bir sıra irimiqyaslı layihələr reallaşdırılır. Dövlət başçımızın bu sahədə imzaladığı sərəncamlara, qəbul olunan Dövlət proqramlarına uyğun olaraq ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində kompleks tədbirlər görülməkdədir.

Ölkə başçısının bu sahədə irəli sürdüyü vəzifələr muxtar respublikada da uğurla həyata keçirilir, aparılan genişmiqyaslı quruculuq işlərində yol tikintisinə xüsusi diqqət yetirilir. Cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamət müəyyən olunmuşdur ki, onlardan biri də Naxçıvan Muxtar Respublikasında nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən müasir avtomobil yol layihələrinin hazırlanmasıdır. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan tarixin bütün mərhələlərində beynəlxalq ticarət və iqtisadi əlaqələrin inkişafında mühüm rol oynamışdır. Ümummilli Liderin ***"Böyük İpək Yolu keçmişdən başlasa da, gələcəyə doğru gedən yoldur. O, xalqımızı firavanlığa və tərəqqiyə çıxaracaqdır"*** fikri bu gün də öz aktuallığını qoruyur və strateji inkişaf xəttinin əsas ideya mənbələrindən biri kimi çıxış edir. Məhz bu siyasi kursun davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli və prin-

> **Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**
> ***"Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir... Bu o qədər də asan məsələ deyildir. Yol tikintisi çox böyük peşəkarlıq tələb edir. Keyfiyyətli yol böyük ustalıq və əlbəttə ki, nəzarət tələb edir".***

sipial siyasəti nəticəsində regionda yeni geoiqtisadi reallıqlar formalaşmış, Zəngəzur dəhlizinin açılması perspektivi Naxçıvanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Bu dəhliz yalnız tarixi ədalətin bərpası deyil, həm də Naxçıvanın birbaşa quru bağlantısı vasitəsilə Azərbaycanın əsas hissəsi və beynəlxalq nəqliyyat şəbəkələri ilə inteqrasiyasını təmin edəcək mühüm strateji layihədir.

Dünya əhəmiyyətli Böyük İpək Yolunun Naxçıvan ərazisindən keçən hissəsinin müasir standartlara uyğun bərpası, magistral yolların yenidən qurulması və nəqliyyat-logistika infrastrukturunun gücləndirilməsi Zəngəzur dəhlizinin açılması fonunda daha geniş iqtisadi imkanlar yaradacaqdır. Bu proses muxtar respublikanın tranzit potensialını artırmaqla yanaşı, beynəlxalq yük və sərnişin daşımalarında rolunu əhəmiyyətli dərəcədə gücləndirəcək, regionu Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat marşrutlarının mühüm qovşaqlarından birinə çevirəcəkdir.

Beləliklə, Ulu Öndərin strateji baxışları və dövlət başçısının qətiyyətli siyasəti nəticəsində Naxçıvan Böyük İpək Yolunun müasir mərhələdə yenidən canlanan həlqəsi kimi çıxış edərək iqtisadi yüksəlişin və regional inteqrasiyanın yeni inkişaf mərhələsinə qədəm qoyur.

Bu strateji xəttin praktik müstəvidə reallaşdırılması isə nəqliyyat infrastrukturunun davamlı şəkildə təkmilləşdirilməsini zəruri edir. Məhz bu baxımdan Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyır və regionun nəqliyyat şəbəkəsinin mərhələli və sistemli inkişafını təmin edir. Bu çərçivədə həm magistral yollar, həm də kənd və qəsəbələri birləşdirən daxili yol şəbəkələri yenidən qurulur. Yol yatağının möhkəmləndirilməsi, asfalt-beton örtüyünün keyfiyyətinin artırılması və relyefə uyğun mühəndis qurğularının quraşdırılması kimi həllər, infrastrukturun uzunmüddətli və sabit istismarına şərait yaradır.

Agentlik muxtar respublikada 1 161 kilometr uzunluğunda ümumi istifadədə olan avtomobil yollarına və həmin yollar üzərində yerləşən 162 körpüyə xidmət göstərir. Bu yolların 269 kilometri respublika, 892 kilometri isə yerli əhəmiyyətli yollardan ibarətdir.

Bununla yanaşı, agentlik muxtar respublikanın şəhər və kənd yaşayış məntəqələrində yerləşən, ümumi uzunluğu 2 952 kilometr olan bələdiyyə və icra hakimiyyətlərinin balansında olan yolları da diqqətdə saxlayır.

Bu geniş yol şəbəkəsinə fasiləsiz xidmət göstərilməsi, eyni zamanda onun mərhələli şəkildə yenilənməsi fəaliyyətin miqyasını və məsuliyyət yükünü aydın şəkildə nümayiş etdirir. Statistik göstəricilər isə görülən işlərin illər üzrə artan dinamika ilə həyata keçirildiyini təsdiqləyir. Belə ki, 1995-ci ildən bu günə kimi muxtar respublikada 20,7 kilometr avtomobil yolu tikilib, 2 664 kilometr avtomobil yolu əsaslı təmir olunub və 96 körpü tikilərək vətəndaşların istifadəsinə verilib. Bu rəqəmlər yol infrastrukturunun davamlı inkişafının ardıcıl dövlət siyasətinin nəticəsi olduğunu bir daha göstərir.

Muxtar respublikada müasir avadanlıqlarla təmin olunan asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalına imkan verib. Son illər Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin maddi-texniki bazası da xeyli möhkəmləndirilib, istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınmasında mühüm rol oynayan müasir mexanizmlərlə təmin olunub. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikada yol tikintisinin səmərəli təşkilinə şərait yaradaraq müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunub.

Ölkə başçısının diqqəti ilə



həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinə belə ilin istənilən fəslində və günün istənilən saatında rahat gediş-gəliş mümkündür. Ən ucqar kəndlərə qədər uzanan asfalt yollar təkcə rahatlığı təmin etmir, həm də əhali üçün yeni imkanlar yaradır: kənd təsərrüfatı məhsullarının daşınması sürətlənir, turizm obyektlərinə gediş-gəliş asanlaşır. Yolların yenilənməsi, həmçinin gələcək investisiyalar üçün əlverişli mühit formalaşdırır və bölgənin ümumi inkişaf strategiyasına dinamizm gətirir. Yenidən qurulan və ya təmir olunan yollar yalnız nəqliyyat hərəkətinin sürətini artırmır, həm də təhlükəsizliyi prioritet kimi diqqətdə saxlayır. Müasir standartlara uyğun yol nişanlarının, piyada keçidlərinin və işıq əksetdirici siqnal dirəklərinin quraşdırılması sürücü və piyadalar üçün daha təhlükəsiz hərəkət mühitinin formalaşmasına xidmət edir.

Təkcə 2025-ci il ərzində Dövlət Proqramına uyğun olaraq 56 kilometr avtomobil yolu əsaslı təmir olunaraq əhalinin istifadəsinə verilib. Bu rəqəmlər yol infrastrukturunun yenilənməsinin təsadüfi deyil, məqsədyönlü planlaşdırma və ardıcıl icra prinsiplərinə əsaslandığını təsdiqləyir. Görülən işlər bir daha sübut edir ki, yol təsərrüfatına uzunmüddətli xidmət sahəsi kimi yanaşılır. Yolların yenidən qurulması, təmiri və istismarı mərhələli şəkildə həyata keçirilir. Hər bir kilometr yolun dayanıqlı və keyfiyyətli olması isə prioritet kimi müəyyən olunub.

Qeyd edək ki, ötən ilin sonundan etibarən muxtar respublikanın 95,6 kilometrlik avtomobil yolunda əsaslı təmir işlərinə də başlanılıb. Bu, irihəcmli layihə olmaqla yol infrastrukturunda genişmiqyaslı yenilənməni əhatə edir. Belə ki, Naxçıvan şəhərinin bir sıra məhəllə və küçələrində yol əsasının möhkəmləndirilməsi və suötürücü qurğuların quraşdırılması istiqamətində işlər aparılır. Cari ildə də yol infrastrukturunun yenilənməsi istiqamətində işlərin ardıcıl və planlı şəkildə davam etdirilməsi nəzərdə tutulur.

Bu yanaşma Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yol infrastrukturuna verdiyi yüksək önəmin məntiqi davamıdır. Dövlət başçısının dediyi kimi: ***"Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir... Bu o qədər də asan məsələ deyildir. Yol tikintisi çox böyük peşəkarlıq tələb edir. Keyfiyyətli yol böyük ustalıq və əlbəttə ki, nəzarət tələb edir".*** Naxçıvanda həyata keçirilən layihələr də məhz bu prinsipə əsaslanaraq peşəkar yanaşma, ciddi texniki nəzarət və yüksəkkeyfiyyət standartları əsasında icra olunur.

Agentlik işin müasir standartlara uyğun icrasını təmin etmək üçün beynəlxalq təcrübədən də aktiv şəkildə yararlanır. Yol infrastrukturunun layihələndirilməsi, tikintisi və təhlükəsizliyi üzrə qabaqcıl texnologiyaların tətbiqi məqsədilə bir sıra xarici şirkətlər və mütəxəssislərlə əməkdaşlıq həyata keçirilir. Bu isə həm yol keyfiyyətinin yüksəldilməsinə, həm də uzunmüddətli və davamlı istismar imkanlarının təmin olunmasına xidmət edir.

İqtisad elminin atası hesab olunan Adam Smitin "Xalqların sərvəti" kitabında qeyd etdiyi kimi, yaxşı yollar ticarəti stimullaşdıraraq ölkəni zənginləşdirir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın yenilənən yolları da məhz ölkəmizin davamlı inkişafına əvəzsiz töhfə verəcək.



**Əli İBRAHİMBƏYLİ**
***Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***

# Tarın sədası, orkestrin ahəngi

## Elman Əliyevin sənət yolu

*Azərbaycan milli musiqi mədəniyyətinin inkişaf tarixində elə sənətkarlar var ki, onların adı təkcə bir ifaçı, bir dirijor, bir pedaqoq kimi deyil, bütöv bir sənət mühitinin formalaşdırıcısı kimi çəkilir. Tarın sədasını taleyinə çevirən, orkestr kürsüsündə zamanın ritmini idarə edən, yüzlərlə tələbənin qəlbində musiqi eşqini alışdıran belə sənətkarlarımızdan biri də dirijor, tarzən, pedaqoq Elman Əliyevdir.*

*65 illik ömür yoluna nəzər saldıqda aydın görünür ki, bu həyat təkcə illərlə ölçülmür. Bu, konsert salonlarının alqışları, səhnələrin işıqları, orkestrin ahəngi, muğamın nəfəsi, tələbələrin uğuru və milli musiqimizin keşiyində dayanan fədakar əməyin hekayəsidir.*

*Elman Əliyev musiqi ilə 7 yaşında tanış olub və tarın sehrli sədaları onun həyat yoluna çevrilib. Naxçıvan Şəhər Pioner və Məktəblilər Evində ilk addımlar, ardınca musiqi məktəbində aldığı təhsil, ustad sənətkarlarla təmas – bütün bunlar gələcək böyük musiqiçinin formalaşmasında mühüm rol oynayıb. O, uşaq musiqi məktəbində təhsil alarkən Rəşid Məmmədov, Əkrəm Məmmədli kimi ustadlardan sənətin incəliklərini öyrənib. "Əlvan çiçəklər" ansamblında ifaçı kimi Gəncə və Bakı səhnələrinə çıxması onun sənət taleyinin erkən parlaq səhifələrindən idi.*

1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyində orkestr heyətinə tar ifaçısı kimi dəvət olunması isə onun həyatında dönüş nöqtəsi olub. Həmin tədbirdə orkestri maestro Niyazinin idarə etməsi gənc musiqiçi üçün unudulmaz sənət dərsi idi. 1976-1980-ci illərdə Naxçıvan Orta İxtisas Musiqi Məktəbində tar ixtisası üzrə təhsil alan Elman Əliyev ali təhsilini 1983-1988-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında davam etdirib. Tələbəlik illərində Qurban Qasımov və Nizami Hüseynovla yaratdığı üçlük muğam və xalq musiqisinin təbliğində fəal olmuş, 1989-cu ildə Ağdam və Şuşada keçirilən "Xarıbülbül" Muğam Festivalında çıxış etmiş, daha sonra isə müxtəlif vaxtlarda Təbriz, Urmiya, Tehran, Ankara, Qars, Kayseri və Ərzurumda keçirilən konsertlərdə milli musiqimizi beynəlxalq səviyyədə təqdim etmişdir.

Elman Əliyev 1978-ci ildən pedaqoji fəaliyyətə başlayaraq uşaq musiqi məktəblərində və Naxçıvan Musiqi Kollecində çalışıb, 1985-ci ildə tələbəsi Fəxrəddin Baxşəliyevin Ümumittifaq ifaçılıq müsabiqəsində qalib olması ilə mühüm uğur qazanıb və bu nailiyyətə görə SSRİ Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilib.

1983-cü ildə Naxçıvan Dövlət Filarmoniyası yaradıldıqdan sonra Elman Əliyev burada tar ifaçısı kimi fəaliyyətə başlayıb. Sonralar dirijor və bədii rəhbər, 2005-2018-ci illərdə isə direktor vəzifəsində çalışmış, onun rəhbərliyi dövründə Filarmoniya Türkiyədə, Türkmənistanda, Moskvada, Polşada təşkil olunan festival və konsertlərdə ölkəmizi layiqincə təmsil etmişdir. 2017-ci ildə yaratdığı "Muğam studiyası" ilə Elman Əliyev muğam sənətinə yeni nəfəs vermişdir.

Elman Əliyevin yaradıcılığında xüsusi yer tutan sahələrdən biri də orkestrləşdirmədir. O, Hacı Xanməmmədovun Kamança konsertini, Fikrət Əmirovun "Sevil" operasından "Sevilin ariyası"nı, Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasını Xalq Çalğı Alətləri Orkestri üçün işləyib. Fikrət Əmirovun "Sevil" tamaşası üçün bəstələdiyi 16 musiqi nömrəsinin müəllif əlyazmaları əsasında simfonik orkestr üçün partiturasını bərpa etməsi isə milli musiqi irsinin qorunması baxımından böyük mədəni hadisədir. Elman Əliyev bəstəkar Tofiq Bakıxanovun "Naxçıvan" simfoniettasının redaktəsində Xalq artisti Ağaverdi Paşayevlə birgə iştirak etmiş, son illərdə isə bəstəkarın yubiley tədbirlərində Ağaverdi müəllimlə səhnəni bölüşərək ustalıqla dirijorluq etmişdir.



Musiqi irsimizin zənginləşdirilməsinə verdiyi töhfələrə görə Elman Əliyevin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş və 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

Bu yaxınlarda Elman Əliyevin 65 illik yubileyi münasibətilə Bakıda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında möhtəşəm yubiley konserti keçirildi. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə təqdim olunan konsert proqramı Elman müəllimin uzun illər ərzində formalaşdırdığı musiqi zövqünün, repertuar seçiminin və dirijor təfəkkürünün parlaq ifadəsi idi. Proqramda həm milli klassikamızdan, həm muğam irsimizdən, həm də bəstəkar yaradıcılığından nümunələr yer aldı.

Tədbirdə Azərbaycan musiqi ictimaiyyətinin görkəmli nümayəndələri iştirak edirdilər. Xalq artistləri Samir Cəfərov, Gülyaz və Gülyanaq Məmmədovalar, Əməkdar artist Nuriyyə Hüseynova və digər sənətçilər öz çıxışları ilə gecəyə unudulmaz canlılıq gətirdilər. Konsert boyu səhnədə səslənən ifalar Elman Əliyevin yaradıcılıq yolunun müxtəlif mərhələlərini əks etdirirdi – tarzən kimi keçdiyi yol, dirijor kimi qazandığı uğurlar, muğamın və xalq musiqisinin təbliğinə verdiyi töhfələr bu proqramda öz bədii əksini tapmışdı.

Bu yubiley gecəsi bir daha təsdiqlədi ki, Elman Əliyev yalnız Naxçıvan musiqi mühitinin deyil, bütövlükdə, Azərbaycan milli musiqi mədəniyyətin inkişafında mühüm rolu olan sənətkardır. Bu yubiley həm keçilmiş yolun hesabatı, həm də gələcək yaradıcılıq uğurlarına inamın rəmzi kimi yadda qaldı.

Biz də yubileyi münasibətilə dəyərli sənətkar, dirijor və pedaqoq Elman Əliyevi səmimi-qəlbdən təbrik edir, ömrünün böyük bir hissəsini Azərbaycan milli musiqisinin inkişafına, Naxçıvan musiqi mühitinin formalaşmasına və yeni nəslin yetişdirilməsinə həsr etmiş Elman müəllimə möhkəm cansağlığı, uzun ömür, tükənməz yaradıcılıq enerjisi arzulayırıq. Sənət yolunuz daim işıqlı və uğurlu olsun!

**Günay MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü***



# Xalq artisti Sofya Hüseynovanın 100 illik yubiley tədbiri keçirilib




Heydər Əliyev Sarayında keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov qeyd edib ki, bu gün 100 illik yubiley münasibətilə təkcə bir sənətkarın xatirəsini yad etmir, eyni zamanda bir məktəbin, bir ənənənin, sənətə sədaqətin simvolunu anırıq. Sofya Hüseynovanın yaratdığı sənət irsi gələcək nəsillər üçün qiymətli xəzinədir. Onun adı Azərbaycan mədəniyyət tarixində daim hörmət və ehtiramla çəkiləcəkdir.

Nazir müavini vurğulayıb ki, belə yubileylər bizə xatırladır ki, zaman ötür, nəsillər dəyişir, amma həqiqi sənət əbədidir. Sənətkar cismən aramızda olmasa da, onun səsi, yaratdığı obrazlar və qoyub getdiyi mənəvi miras yaşayır və yaşamağa davam edəcəkdir.

Tədbirdə çıxış edən Xalq artistləri – Kamran Quliyev, Yasəmən Ramazanova, Rza Xudiyev, Həsən Ağasoy, Şirzad Abutalıbov qeyd ediblər ki, Sofya Hüseynova sənətkar olmaqla yanaşı, həm də yüksək mənəvi keyfiyyətlərə malik bir insan idi. Səhnə mədəniyyəti, kollektivə münasibəti, gənc sənətkarlara qayğısı onun xarakterinin ayrılmaz hissəsi idi.

Sofya Hüseynovanın oğlu, Azərbaycan Respublikasının Xalq artisti Rövşən Hüseynov bildirib ki, bir əsrlik yubiley, sadəcə, zaman göstəricisi deyil. Bu, bütöv bir dövrün, bir sənət yolunun, bir ömürlük zəhmətin və xalq sevgisinin təntənəsidir. Sofya Hüseynovanın həyat və yaradıcılıq yolu Azərbaycan incəsənətinin inkişaf mərhələləri ilə sıx bağlı olmuşdur.

Tədbirdə Sofya Hüseynovanın Naxçıvan teatrında oynadığı tamaşalardan fraqmentlər videoçarx şəklində təqdim olunub.

Sonda H.Cavidin "Ana" tamaşasından son səhnə Naxçıvan teatrının aktyorları tərəfindən nümayiş olunub.

# Bu libasların hər qatında bir nəsil, hər rəngində bir dövr yaşayır



Gözlərimizi yumub uzaq əsrlərin sədasına qulaq assaq, ipək parçaların xışıltısını, gümüş kəmərlərin zərif cingiltisini və naxışların pıçıltısını eşidərik. Azərbaycanın milli geyimləri bu torpağın minillik yaddaşının, sevincinin və kədərinin ilmə-ilmə toxunmuş mənzərəsidir. Bir gəlinin geyindiyi al-qırmızı, zərli arxalıqda bərəkətli günəşin istisi, bir pəhləvanın çiynindəki çuxada isə uca dağların vüqarı gizlənir. Bu libaslar xalqımızın estetik ruhunun güzgüsüdür. Elə bir güzgü ki orada həm Arazın mavi dalğaları, həm də Naxçıvan yaylaqlarının əlvan lalələri əks olunur. İncə barmaqların gecələr çıraq işığında toxuduğu o naxışlar sanki dilsiz bir əlifbadır. Hər buta bir od rəmzi, hər gül bir bahar müjdəsidir. Qadın geyimlərindəki zəriflik sanki təbiətin bütün rənglərini bir araya gətirir. Məxmərin toxunuşundakı o yumşaqlıq Azərbaycan qadınının qəlbindəki mərhəməti, əl ilə toxunan parçanın ağırlığı isə onun nəcabətini simvolizə edir. Qolları yellənən çəpkənlər hər hərəkətdə bir quşun qanad çalmasını xatırladır, sanki o geyimi daşıyan xanım bu dünya üzərində süzür, torpağa toxunsa da, ruhu göylərlə həmdəm olur. Başa bağlanan kəlağayı isə bir namus və ismət çətiri kimi idi. Onun üzərindəki hər bir naxış elə bil, bir nənənin nəvəsinə pıçıldadığı layladır, ipəyin süzülən telləri isə tarixin axar çaylarıdır.

Kişi geyimlərində isə bir başqa aləm, bir başqa əzəmət var idi. Qalın çuxaların, bəzəkli gümüş kəmərlərin və qoyun yunundan hazırlanmış papaqların arxasında mərdlik, sözübütövlük və sarsılmaz bir iradə dayanırdı. O geyimlər insanı həm soyuqdan qoruyar, həm də daxili dünyasının bütövlüyünü nümayiş etdirərdi. Kəmərə bərkidilmiş xəncərin parıltısı hünərin, papağın başda dik durması isə ləyaqətin nişanəsi idi. Dağların havası ilə yoğrulmuş bu geyim forması insanın təbiətlə necə harmoniyada yaşadığını, hər bir detalın həm funksional, həm də dərin mənəvi anlam daşıdığını göstərir. Bu libasların hər bir qırışında bir nəsil, hər rəngində bir dövr yaşayır. Onlar sandıqlardan çıxanda otağa ətir qoxusu ilə yanaşı, həm də ulu babalarımızın, nənələrimizin ruhu dolur. Bu geyimlər bizi keçmişimizə bağlayan, qəlbimizi qədim köklərimizə qovuşduran canlı körpülərdir. Onları seyr edərkən başa düşürsən ki, gözəllik nə keçir, nə də itir, əksinə, sənətə çevrildikdə əbədiləşir. Azərbaycan milli geyimi bizim vizual musiqimizdir. Elə bir musiqi ki səssiz, amma ruhu titrədən, baxdıqca doyulmayan və hər baxışda yeni bir sirrini açan möhtəşəm bir dastan.

Hər bir tikiş xalqın dühasından süzülüb gələn bir hikmətdir. Məsələn, Şəki ipəyinin zərifliyi sanki o diyarın şirin kəlamlarını özündə yaşadır, Naxçıvanın naxışları isə qədim qalaların daş yaddaşını parça üzərinə köçürür. Bir gəncin toy libası onun gələcəyə atdığı ilk addımındakı ümidi, bir ağsaqqalın ağır kürkü isə keçilən yolların müdrikliyini təmsil edir. Bu geyim mədəniyyəti həm də Azərbaycanın coğrafi rəngarəngliyidir. Aran rayonlarının yüngül və nəfəs alan kətanları ilə dağlıq zonaların qalın, adamı həm fırtınadan, həm də soyuqdan qoruyan yun libasları arasındakı o harmonik keçid heyranlıq doğurur. Qadınların sinəsinə taxdığı gümüş şəbəkə bəzəklər gecənin ulduzlarını xatırladırsa, kişilərin geyindiyi ayaqqabılar olan nallı başmaqlar və ya uzunboğaz çəkmələr torpağa inamla basan qətiyyəti ifadə edir. Biz bu geyimlərə baxanda, sadəcə, estetik zövq almırıq, biz orada bir millətin necə yaşadığını, necə sevdiyini və nəyə inandığını görürük. Onlar bizim qürur mənbəyimiz, dünyaya olan səssiz, lakin ən təsirli mesajımızdır. Hər kəs bu geyimlərin bir parçasına toxunduqda damarlarında axan o qanın hənirtisini hiss edir, özlüyündə tarixin tozlu səhifələrindən boylanan bir qəhrəmana çevrilir. Bizə əmanət, miras olan, ruhumuzun libası, kimliyimizin ən parlaq bəzəyi kimi onu qorumalı və gələcək nəsillərə bir dastan kimi ötürməliyik.

✍ Elnurə CƏFƏROVA

## Yel babadan oyanış nəfəsi

Baharın müjdəçisi olan İlaxır çərşənbələrin üçüncüsü, Yel çərşənbəsi gəlib çatdı. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" və ya sadəcə, "Yelli çərşənbə" kimi tanınan bu əziz gün təbiətin dörd əsas ünsüründən biri olan havanın oyanışını tərənnüm edir.

Qışın soyuq səssizliyini pozan, baharın ətrini uzaqlardan gətirən müqəddəs bir mehdir bu gün. İnanclara görə, artıq oyanmış olan Su və Odun ardınca Yel də hərəkətə keçir. Dünyanı gəzir, suları ləpələndirir, odu alovlandırır və təbiətə "oyan" deyə pıçıldayır. Yel çərşənbəsi küləyi əsdirərək keçən ilin kədərini, tozunu-torpağını ruhumuzdan silib-süpürən təmizlənmə ritualıdır.

Deyilənə görə, həmin gün külək gün ərzində bir neçə dəfə rəngini və səmtini dəyişir. Gah isti, gah da soyuq əsərək dünyanı tarazlığa gətirir. İnsanlar küləyə qarşı durub arzularını danışır, "Yel baba"dan ruzi-bərəkət və xoş xəbərlər diləyirlər. Yel ağacları silkələyərək onları qış yuxusundan ayıldır, tumurcuqların içindəki gizli həyatı oyadır.



Bir az dəli-dolu, bir az başıdumanlı küləkdir bu. Gah qapıları döyür, gah pəncərələri titrədir, gah da insanın üzünə toxunub keçmişin tozunu-torpağını ruhundan qovub aparır.

Qapı-pəncərənizi taybatay açın ki, Yel baba içəridəki ağırlığı aparıb, evinizə baharın təravətini və yeni ümidləri bəxş etsin. Bu coşqun küləklərlə gələn oyanış bayramınız, Yel çərşənbəniz mübarək olsun!

## Şahmat üzrə qaliblər bəlli olub



Naxçıvan Şahmat Mərkəzində ümumtəhsil məktəblərinin şagirdləri arasında 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş şahmat üzrə muxtar respublika birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə baş tutan yarışda 35 məktəbli İsveçrə sistemi üzrə 7 turda mübarizə aparıb.

Yarışın nəticələrinə əsasən oğlanlar arasında Yasin Əzimov 7 xalla birinci olub. Aktivində 5,5 xal olan Fərəməz Quliyev və Rail Qasımlı yarışı müvafiq olaraq ikinci, üçüncü yerlərdə tamamlayıblar. Qızların mübarizəsində isə Nigar Qənbərli 4,5 xalla qalib adını qazanıb. Ayla Zamanlı 4 xalla ikinci, Xatirə Həsənli isə 3,5 xalla üçüncü yeri tutub.

Sonda ilk üç yerin sahiblərinə diplom, medal və hədiyyələr, həvəsləndirici yerlərin sahiblərinə isə fəxri fərman təqdim olunub.

## Ordubadın gənc atletləri paytaxtda zirvəni fəth etdi



Azərbaycan Atletika Federasiyası ilə Gənclər və İdman Nazirliyinin təşkil etdiyi ölkə birinciliyində Naxçıvan idman məktəbinin yetirmələri uğurla çıxış ediblər. Belə ki, "Ordubad" komandası Bakıda 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanaraq muxtar respublika idmanını layiqincə təmsil edib.

200-ə yaxın idmançı arasında qazanılan bu nailiyyət idmançılarımızın düzgün taktiki hazırlığının, onların bu sahəyə ciddi yanaşmalarının təzahürüdür.

Komandanın ən parlaq çıxışlarından birinə imza atan Namiq Babayev ardıcıl qələbələr qazanaraq 800 və 1500 metr məsafələrdə iki dəfə fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. O hər iki məsafədə finiş xəttini birinci keçərək qızıl medal qazanıb. Yarışdakı təssüratlarını bizimlə bölüşən Namiq Babayev deyir: "Bu yarış mənim üçün çox önəmli idi. Çünki həm hazırlıq səviyyəmi yoxlayırdım, həm də özümə olan inamımı gücləndirmək istəyirdim. Rəqiblər güclü idi, amma məşqçimin verdiyi tapşırıqlara əməl etdim və nəticədə gözlədiyim kimi oldu. Qələbə qazanmaq mənim üçün böyük motivasiyadır". İndi onun məqsədi ölkədaxili yarışlarla yanaşı, həm də gələcəkdə beynəlxalq arenalarda Naxçıvanı və Azərbaycanı layiqincə təmsil etməkdir.

Digər idmançımız Aysel Hüseynova isə bu nəticənin onun üçün böyük təcrübə olduğunu qeyd edib: "3000 metr məsafədə mübarizə apararaq yarışda gümüş medal qazandım və komandanın medal sırasına öz töhfəmi verə bildim. Finişə qədər olan məsafədə böyük mübarizə apardım və düşünürəm ki, son ana qədər rəqiblərim ilə ayaqlaşa bildim. Bu yarış növbəti yarışlara daha ciddi hazırlaşmağıma stimul verdi".

Eyni məsafədə çıxış edən Rüqəyya Məmmədli isə bürünc medal qazanıb. Gənc atlet üçün bu medal ilk böyük uğurlardan biri hesab olunur: "İlk dəfə belə böyük yarışda iştirak edirdim. Rəqabət güclü idi, amma finişə çatanda medal qazandığımı bilmək məni çox sevindirdi. Bu nəticə özümə olan inamımı daha da artırdı. Məqsədim məşqləri daha da intensivləşdirərək gələcək yarışlarda daha yüksək nəticələr əldə etməkdir".

Komanda üzvlərindən digəri Aylin İsmayılova da yarışın təşkilati səviyyəsindən və ümumi atmosferindən razı qalıb: "Yarış çox yaxşı keçdi, gözlədiyimdən daha yaxşı oldu. Həm yarışın təşkili, həm də idmançılara yaradılan şərait bizi daha yaxşı nəticə göstərməyə ruhlandırdı. Bu cür yarışlar bizim üçün böyük məktəbdir. Hətta fikrimcə, qazanılan nəticələr Ordubadda atletikanın inkişafına olan marağı daha da artıracaq. Bu cür birinciliklər gənc idmançıların gələcək karyerasında mühüm rol oynayır".

Paytaxtımızda keçirilən bu yarış, əslində, gənc atletlər üçün bir tramplin rolunu oynayır. Bu qələbələr göstərir ki, düzgün sistem və əzmkarlıq olduqda bölgələrdən gələn idmançılar ölkə üzrə keçirilən idman yarışlarında ən yüksək zirvələri fəth edə bilərlər. İndi hədəf bu uğuru açıq hava çempionatlarında, beynəlxalq arenalarda təkrarlamaqdır.

"Şərq qapısı"

### İtmişdir

Məmmədov Cəmşid İmran oğlunun adına olan MV-038408 seriya nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Namazov Namiq Hüseyn oğlunun adına olan Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Hacıyev Coşqun İlqar oğlunun adına olan AD-0055452 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidmət qulluçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Sultanova Arzu Mirzə qızının adına olan Şahbuz rayonu, Qarababa kəndində AA-001390 nömrəli torpaq sahəsinin planı və ölçüsü, Babək rayonu, Nəzərabad kəndində MH-0005806 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Əbülhəsənov Hidayət Allahverdi oğlunun adına verilmiş JN-700$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Qəribov Məmməd Novruz oğlunun adına olan qeyri-yaşayış binasının 22.01.2014-cü il tarixli, 2230 inventar nömrəli daşınmaz əmlakın texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənd sakini Fərəcov Fəxrəddin Gülməmməd oğluna məxsus JN-324 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Xəlilov Elşən Saleh oğluna məxsus JN-431$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 54

Nömrəyə məsul: Ramiyə Əkbərova, Zəhra Vəliyeva, Elnurə Cəfərova
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.